**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# “AZƏRBAYCANDA DÖVLƏT GƏLİRLƏRİNİN MALİYYƏ MENECMENTİNİN TƏŞKİLİ İSTİQAMƏTLƏRİ”

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**Nağıyeva Lamiə İsmayıl qızı**

**BAKI - 2021**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**

**i.ü.f.d., dos. Əhmədov Fariz Saleh oğlu**

**__________________________ imza**

**"____" ________________ 2021-ci il**

# "AZƏRBAYCANDA DÖVLƏT GƏLİRLƏRİNİN MALİYYƏ MENECMENTİNİN TƏŞKİLİ İSTİQAMƏTLƏRİ"

**mövzusunda**

## MAGİSTR DİSSERTASİYASI

**İxtisasın şifri və adı: 060403 - "Maliyyə"**
**İxtisaslaşma: "Maliyyə menecmenti"**
**Qrup: 644**


**Magistrant:**

**Nağıyeva Lamiə İsmayıl qızı**

**______________________ imza**

**Elmi rəhbər:**

**i.e.d. prof. Ələkbərov Əvəz Əkbər oğlu**

**____________________imza**

**Proqram rəhbəri:**

**i.ü.f.d. Vəliyev Cəbrayıl Xəlil oğlu**

**______________ imza**

**Kafedra müdiri:**

**i.e.d., prof. Kəlbiyev Yaşar Atakişi oğlu**

**_____________________imza**


**BAKI - 2021**

## Elm andı

Mən, Nağıyeva Lamiə İsmayıl qızı and içirəm ki, “Azərbaycanda dövlət gəlirlərinin maliyyə menecmentinin təşkili istiqamətləri” mövzusunda magistr dissertasiyasını elmi əxlaq normalarına və istinad qaydalarına tam riayət etməklə və istifadə etdiyim bütün mənbələri ədəbiyyat siyahısında əks etdirməklə yazmışam.

# AZƏRBAYCANDA DÖVLƏT GƏLİRLƏRİNİN MALİYYƏ MENECMENTİNİN TƏŞKİLİ İSTİQAMƏTLƏRİ

## XÜLASƏ


**Tədqiqatın aktuallığı: Dövlət gəlirləri vasitəsilə ölkənin sosial-iqtisadi sahələrinin maliyyələşdirilməsi təmin edilir, ayrı-ayrı reqionların inkişafı tənzimlənir. Dövlət, iqtisadi münasibətlərin tənzimlənməsi vasitəsilə ölkədə məhsuldar qüvvələrin inkişafını təmin edir.**
**Problemlərin tədqiq edilib öyrənilməsi: Dövlət gəlirlərinin formalaşmasında büdcə gəlirlərinin səmərəli idarə edilməsinin tədqiq olunması olduqca vacibdir.**
**Tədqiqatın məqsədi: Azərbaycanda dövlət gəlirlərinin maliyyə menecmentinin müasir şəkildə təşkili istiqamətində yaranan problemlərin araşdırılması və problemlərin qarşısının alınması üçün təkliflərin verilməsindən ibarətdir.**
**İstifadə olunmuş tədqiqat metodları: Tədqiqat işində statistik-qruplaşdırma, iqtisadi-statistik, müşahidə, müqayisəli təhlil və balans metodlarından istifadə edilmişdir.**
**Tədqiqatın informasiya bazası: Azərbaycan Respublikası Prezidentinin dövlət büdcəsinə dair fərman və göstərişləri , Azərbaycan Respublikasının Vergi Məcəlləsinin müvafiq məcəllələri, Mərkəzi Bankın təlimatları, göstərişləri və hesabatlardan ibarətdir.**
**Tədqiqatın məhdudiyyətləri: Dövlət Statistika Komitəsinin məlumatlarında vergi növləri üzrə büdcə daxilolmaları dərc olunsa da , ayrı-ayrı iqtisadi sektorlar üzrə vergi daxilolmalarının olmaması tədqiqatın daha dərindən təhlil edilməsi perspektivində məhdudiyyətlər yaradır.İqtisadi məlumatların yerli səviyyədə tətbiqinin nəticələrinə dair lazımi qədər məlumat yoxdur.**
**Tədqiqatın elmi yeniliyi və praktiki nəticələri: Tədqiqatımın nəzəri istiqamətdən əhəmiyyəti Azərbaycanda dövlət gəlirlərinin maliyyə menecmentinin təşkili istiqamətləri barədə elmi təsəvvürün genişlənməsi və dərinləşməsinə müsbət keyfiyyətli zəmin yaratmaqdır. Təklif etdiyim metodiki işləmələr təcrübi məna sərgiləyir,Respublikamızda maliyyə, büdcə məsələlərinin inkişaf etməsi yönündə reallıq doğurur.**
**Nəticələrin istifadə oluna biləcəyi sahələr: Tədqiqat dövlət maliyyəsinin, dövlət gəlirlərinin idarə edilməsində, maliyyə menecmentində maraqlı olan şəxslərə, hökumət qurumlarına təqdim etmək üçün hazırlanıb. Tədqiqat dövlət gəlirlərinin səmərəli idarə edilməsi ilə maraqlanan, bu sahəni araşdıran tələbə və iqtisadi araşdırmaçılar üçün faydalı ola bilər.**



***Açar sözlər: dövlət gəlirləri, büdcə, iqtisadi amillər, maliyyə menecmenti***

# ORGANIZATION OF FINANCIAL MANAGEMENT OF GOVERNMENT REVENUES IN THE REPUBLIC OF AZERBAIJAN


## SUMMARY

**The actuality of the subject: In modern times, state revenues are used to finance the socio-economic spheres of the country, the development of economic regions and individual regions is regulated.**

**Purpose and tasks of the research: To study the problems arising in the modern organization of financial management of public revenues in Azerbaijan and to make proposals to prevent these problems.**

**Used research methods: Statistical-grouping, economic-statistical, observation, comparative analysis and balance methods were used in the research work**

**The information base of the research: The information base of the research consists of decrees and instructions of the President of the Republic of Azerbaijan on the state budget, relevant codes of the Tax Code of the Republic of Azerbaijan, instructions and reports of the Central Bank**

**Restrictions of research: Although the State Statistics Committee publishes budget revenues by type of tax, the lack of tax revenues by individual economic sectors limits the need for a more in-depth analysis of the study.**

**The novelty and practical results of investigation: The importance of my research from the theoretical point of view is to create a positive qualitative basis for the expansion and deepening of the scientific understanding of the organization of financial management of public revenues in Azerbaijan.**

**Scientific-practical significance of results: The study is designed to be presented to those interested in public finance, public revenue management, financial management, and government agencies.**



***Keywords: government revenues, budget, economic factors, financial management.***

# İXTİSARLAR

| | |
|---|---|
| **AR** | Azərbaycan Respublikası |
| **AZN** | Azərbaycan manatı |
| **DSMF** | Dövlət Sosial Müdafiə Fondu |
| **EHM** | Elektron Hesablama Maşınları |
| **ÜDM** | Ümumi Daxili Məhsul |

## MÜNDƏRİCAT


**GİRİŞ........................................................................................................ 8**

**I FƏSİL. DÖVLƏT GƏLİRLƏRİNİN İDARƏ OLUNMASININ NƏZƏRİ METODOLOJİ ƏSASLARI....................................................................... 111**

1.1. Dövlət gəlirlərinin mahiyyəti ................................................................. 11

1.2. Dövlət gəlirlərinin maliyyə menecmentinin təşkilinin əsasları .................. 17

1.3. Azərbaycanda dövlət gəlirlərinə təsir edən amillər ..................................... 22

**II FƏSİL. RESPUBLİKADA DÖVLƏT BÜDCƏSİNİN GƏLİRLƏRİNİN MALİYYƏ MENECMENTİNİN TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ ........................................................................................................ 26**

2.1. Respublikada dövlət gəlirlərinin idarə edilməsinin müasir vəziyyəti .......... 27

2.2. Dövlət büdcəsinin gəlirlərinin düzgün istiqamətləndirilməsi və beynəlxalq təcrübə, büdcə optimallığı........................................................................ 31

2.3. Dövlət büdcəsinin gəlirlərinin hazırlanmasında xəzinədarlığın rolunun qiymətləndirilməsi.......................................................................................... 41

**III FƏSİL. AZƏRBAYCANDA DÖVLƏT GƏLIRLƏRININ MALIYYƏ MENECMENTININ TƏKMILLƏŞDIRILMƏSININ ƏSAS ISTIQAMƏTLƏRI ............................................................................... 49**

3.1. Dövlət gəlirlərinin maliyyə menecmentinin mövcud problemləri və onların aradan qaldırılması məsələləri ............................................................ 48

3.2. Dövlət gəlirlərinin idarə edilməsində informasiya axınlarının avtomatlaşdırılması .................................................................................. 58

3.3. Azərbaycanda dövlət gəlirlərinin maliyyə menecmentinin səmərəliliyinin artırılması**.............................................................................................. 61**

**NƏTİCƏ VƏ TƏKLİFLƏR....................................................................... 70**

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI.............................................. 72**

Cədvəllərin siyahısı ...................................................................................... 75

Qrafiklərin siyahısı........................................................................................ 75

Şəkillərin siyahısı .......................................................................................... 75

# GİRİŞ

**Mövzunun aktuallığı:** Hazırki dövrdə dövlət gəlirləri ilə Respublikanın ayrı-ayrı sahələrinin iqtisadi inkişafı təmin olunur. Dövlət büdcəsinin formalaşması məlum olduğu kimi uzun tarixi inkişaf dövrü keçmişdir. Dövlət gəlirlərinin idarə edilməsinin səmərəli həlli tədqiqatın əsas aktual sahəsi hesab olunur.

**Problemin qoyuluşu və öyrənilmə səviyyəsi:** Dövlət büdcəsinin gəlirlərinin maliyyə menecmentinin ayrı-ayrı sahələri iqtisadçı alimlər tərəfindən öyrənilmişdir. İqtisadçı alimlərdən Ə.Ə.Ələkbərov, Z.Səmədzadə, M.Sadıqov, R.Məhərrəmov,N.Novruzov, Z.Vəliyev və başqa alimlərin əsərlərini nümunə göstərmək mümkündür. Qeyd edilən iqtisadçı alimlərin elmi yazılarına, elmi əsərlərinə diqqət yetirdikdə büdcə gəlirləri, dövlət büdcəsi, büdcə sistemi, büdcənin idarə edilməsinin inkişaf istiqamətləri, büdcə gəlirlərinin səmərəli idarə olunmasının iqtisadi inkişafı üzrə məsələləri görə bilərik.

**Tədqiqatın məqsəd və vəzifələri**: Tədqiqatın məqsədi Azərbaycanda dövlət gəlirlərinin maliyyə menecmentinin müasir şəkildə təşkili istiqamətində yaranan problemlərin araşdırılması və bu problemlərin qarşısının alınması üçün təkliflərin verilməsindən ibarətdir. Bu problemlərin araşdırılması və qarşısının alınması üçün aşağıda qeyd olunmuş vəzifələri yerinə yetirmək vacibdir.

- Dövlət gəlirlərinin nəzəri perpesktivdən araşdırılması ;
- Dövlət gəlirlərinin səmərəli idarə edilməsinə dair tələblərin nəzər salınması;
- Azərbaycanda dövlət gəlirlərinin və müəssisələrdə gəlirlərin idarə edilməsinin təşkilinə təsir edən amillər.

**Tədqiqatın obyekti və predmeti:** Ölkədə dövlət gəlirlərinin idarə olunması, maliyyə menecmenti, gəlirlərin bölgüsü , gəlirlərin səmərəli istifadəsi zamanı mövcud olan iqtisadi münasibətlər sistemi təşkil edir. Tədqiqat işinin predmetini, Azərbaycanda dövlət gəlirlərinin idarə olunmasının təşkili ilə bağlı yaşanan problemlərin tədqiqi təşkil edir.

**Tədqiqat metodları:** Bu tədqiqat mövzusunun araşdırılmasında bir sıra metodlardan istifadə olunacaq. Belə ki, bu metodlara sintez və analiz metodları, induksiya və deduksiya metodları, SWOT, ikinci əl metodları,eyni zamanda anket, sorğu və SPSS programı da aiddir. Hər bir metoda ayrı-ayrılıqda nəzər salaq. Dissertasiya işinin hissələrə bölünməsində istifadə olunan başlıca metod analiz metodudur. Ayrı-ayrı fəsillər üzrə aparılmış tədqiqatların, elmi-nəzəri biliklərin ümumiləşməsində isə sintez metodundan istifadə olunacaqdır.

Dissertasiya işinin birinci fəslində nəzəri biliklərin araşdırılmasında analiz və təhlil metodundan istifadə olunacaqdır. Belə ki, birinci fəsildə dövlət gəlirlərinin mahiyyəti, dövlət gəlirləri ilə bağlı nəzəri fikirlərin formalaşmasında qruplaşdırma metodundan istifadə olunacaqdır. Burada ayrı-ayrı alimlərin tədqiqat sahəsində fikirləri araşdırılaraq tədqiq olunacaq və ümumi tədqiq olunmuş məkumatların dissertasiya işinə uyğunluğu araşdırılaraq ümumiləşdirmə metodundan istifadə olunacaqdır. İkinci fəsildə dövlət gəlirlərinin təhlil, qiymətləndirməsində analiz metodundan və təhlil metodundan istifadə olunacaqdır. İkinci fəsildə son illərdə dövlət gəlirlərinin istifadə olunmuş statistikasına əsasən statistik məlumatların qruplaşdırılması, müqayisə edilməsi, analiz metodlarından istifadə olunacaqdır. Dissertasiya işində induksiya və dediksiya metodlarından da istifadə olunacaqdır. Ayrı-ayrı statistik məlumatların hər bir fəsil üzrə tədqiq edilməsində isə statistik qruplaşdırma metodundan istifadə olunacaqdır.

Dissertasiya işində əsasən Mərkəzi Bankın, Maliyyə Nazirliyinin, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin və digər rəsmi məlumatlardan da istifadə olunacaqdır.

**Tədqiqatın informasiya bazası:** Tədqiqatın informasiya bazası Azırbaycan Respublikası Prezidentinin dövlət büdcəsinə dair fərman və göstərişləri, Azərbaycan Respublikası Vergi Məcəlləsinin müvafiq məcəllələri, Nazirlər Kabinetinin qərarı, Mərkəzi Bankın təlimatları və göstərişləri, Statistika Komitəsinin müvafiq məlumatlarından və hesabatlarından ibarətdir. Qeyd olunmuş mənbələrdən əldə olunmuş məlumatlar əldə edilmiş və tədqiq olunmuşdur. Tədqiqatın hazırlanmasında Azərbaycan Respublikasının 2015-2020-ci illərin büdcəsinin

göstəricilərindən, dövlət büdcəsinin icrasına dair hesabatlardan, Dövlət Neft Fondunun hesabatlarından, Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin, Dövlət Statistika Komitəsinin statistik məlumatlarından və hesabatlardan istifadə edilmişdir.

**Tədqiqatın məhdudiyyətləri:** Dövlət Statistika Komitəsinin məlumatlarında vergi növlər üzrə büdcə daxilolmaları dərc olunsa da ayrı-ayrı iqtisadi sektorlar üzrə vergi daxilolmalarının olmaması tədqiqatın daha dərindən təhlil edilməsi perspektivində məhdudiyyətlər yaradır. İqtisadi məlumatların yerli səviyyədə tətbiqinin nəticələrinə dair lazımi qədər məlumat yoxdur.

**Tədqiqatın elmi yeniliyi:** Tədqiqat işində dövlət büdcəsinin gəlirlərinin maliyyə menecmentində mühüm islahat mexanizmləri ilə bağlı yanaşmalar, dövlət gəlirlərinin idarə edilməsindəki beynəlxalq təcrübə, Azərbaycanda dövlət gəlirlərinin idarə edilməsi sahəsində müasir vəziyyət, indiki durum təhlil edilib, Respublikamızda bu sahə üzrə təklif və tövsiyyələr işlənib hazırlanmışdır. Dissertasiya işinin tədqiq olunması nəticəsində əldə olunmuş tədqiqat nəticələrinin təhlilinə əsasən qeyd etdiyim təklif və tövsiyyələrim gələcəkdə dövlət gəlirlərinin, dövlət büdcəsinin səmərəli idarə edilməsində nəzərə alınacağını düşünürəm.

**Nəticələrin praktiki əhəmiyyəti və tətbiq sahələri:** Tədqiqatımın nəzəri nöqteyi-istiqamətindən əhəmiyyəti Azərbaycanda dövlət gəlirlərinin maliyyə menecmentinin təşkili istiqamətləri barədə elmi təsəvvürün genişlənməsi və dərinləşməsinə müsbət keyfiyyətli zəmin yaratmaqdır. Onun vacib müddəalarından, ərsəyə gətirilən yekun nəticələr, irəli sürdüyümüz təkliflərdən ölkədə dövlət gəlirlərinin idarə edilməsinin inkişafını təkmilləşdirməyə, keyfiyyətcə yeni mərhələyə yüksəlməyə təkan verir. Dissertasiyada verilmiş nəzəri müddəalar, metodoloji yanaşmalar Respublikamızda iqtisadiyyatda yaranan boşluqların büdcə, dövlət gəlirləri vasitəsilə həll olunması sahəsində mövcud elmi bilikləri genişləndirməyə, bu proseslərin dövlət tənzimlənməsinin nəzəri və praktiki məsələlərini həll etməyə imkan verir. Təklif etdiyim metodiki işləmələr təcrübi məna sərgiləyir və Respublikamızda maliyyə, büdcə məsələlərinin inkişaf etməsi yönündə reallıq doğurur.

# I FƏSİL. DÖVLƏT GƏLİRLƏRİNİN İDARƏ OLUNMASININ NƏZƏRİ METODOLOJİ ƏSASLARI

## 1.1. Dövlət gəlirlərinin mahiyyəti

Müasir dövlətlər xalqa bir çox xidmətlər təklif etməkdədir. Bu xidmətlərə təhsil, səhiyyə, məhkəmə, ictimai təhlükəsizlik, milli təhlükəsizlik kimi xidmətlər aiddir. Aydındır ki, bu xidmətlər müəyyən xərc qarşılığında reallaşdırılır. Bu xərclər isə dövlət tərəfindən ödənilməlidir. Çünki, dövlətin öz üzərinə götürdüyü vəzifələrə təhsil, məhkəmə, milli təhlükəsizlikk, səhiyyə, ictimai təhlükəsizlik kimi amillər aiddir. Dövlət sektorunun bu xidmətləri təklif etməsi üçün lazım olan xərcərin reallaşdırıla bilməsi üçün bu xərcləri qarşılaya biləcək gəlirlərə ehtiyyacı vardır. Qeyd olunmuş gəlirlər dövlət gəlirləridir. Gəlirlər müxtəlif mənbələrdən formalaşır. Müxtəlif ölkələrdə dövlət gəlirlərinin formalaşma mənbələri fərqli olur. Belə ki, bu mənbələr turizmdən əldə olunan gəlirlər, vergilər, neft ölkələrində neftdən əldə olunan gəlirlər və s. ola bilər. Bu gəlirlərin əsasını vergilər təşkil edir. Bundan əlavə dövlət resusrları gəlirləri, emissiyalar, borclanmalar, xidmət satışları və s. şəklində olur. Dövlət gəlirləri dövlət qurumlarının ehtiyyaclarından əmələ gələn və bu sərhədlər daxilində qalmaq şərtilə müraciət etdikləri bu şəkildəki gəlirlərdir. Dövlət gəlirlərinin formalaşma mənbələrifərqlidir. Dünya təcrübəsinə nəzər yetirdikdə görərikki, dövlət gəlirləri ölkələrdə eyni mənbələrdən formalaşmır.

> *Dövlət gəlirlərinin də dövlət xərclərindəki kimi, ölkə iqtisadiyyatına təsirləri vardır. Gəlir bölgüsü və resurslar, iqtisadi inkişaf kimi makro təsirlər də ola bilər. Dövlət gəlirlərinin makro və mikro səviyyədə əmələ gətirdiyi təsirlər aşağıdakı kimidir. Bu prosesdə dövlət gəlirlərinin əldə edilməsində dövlət tərəfindən ödəyicilərə bəzi xüsusiyyətlərə görə təsnif olunacaqdır.* (Coşkun C.Aktan., 1996: s. 24).

Dövlət gəlirlərinin mahiyyətinə nəzər salarkən ilk öncə büdcə anlayışı, büdcə gəlirləri və s. kimi iqtisadi anlayışları nəzərdən keçirməliyik.( Məmmədova E.İ.,

Novruzov N.A., 2018). Çünki, dövlət gəlirləri büdcədə formalaşır. Dövlət büdcəsi dövlət gəlirlərinin formalaşmasında mühüm rol oynayır. Dövlət büdcəsi yalnız büdcə gəlirlərinin, dövlət gəlirlərinin formalaşmasını təşkil etmir. Burada digər prosedurlar da mümkündür. Bunlara ən əsası büdcə gəlirlərinin yenidən bölgüsü prosesi təşkil edir. Büdcə gəlirlərinin əsas mahiyyəti ondan ibarətdir ki, burada məcmu gəlirin yenidən bölgüsü prosesi baş verir. Bölgü zamanı maliyyə münasibətləri iqtisadi subyektlər arasında baş tutur. Büdcə gəlirləriin bu bölgüsü bildiyimiz kimi dövlətin öz funksiyalarını həyata keçirməkdə mühüm rol oynayır. Dövlət gəlirləri iqtisadiyyatın əsasını təşkil edir. Dövlətin öz funksiyalarını yerinə yetirmək üçün ən önəml faktor dövlət gəlirləri hesab olunur. Bildiyimiz kimi dövlət gəlirlərinin bir hissəsini büdcə gəlirləri təşkil edir. Dissertasiyada müvafiq illərin dövlət gəlirləri və büdcə gəlirlərini özündə əks etdirən qrafik, cədvəllərə nəzər salacağıq. Ölkəmizdə dövlət gəlirlərinin səmərəli idarəetməsinə dair bir sıra tərbirlər görülmüşdür. Bunlardan ən əsası isə dövlət gəlirlərinin neftdən asılılığını minimuma endirilməsinə dair görülən tədbirlərdir. Bu prosedurlar zamanla əsaslı nəticələr vermişdir.

Vahid büdcə təsnifatına müvafiq olaraq büdcə gəlirləri aşağıdakı 4 kateqoriyadan ibarətdir.

1. Vergilərdən daxilolmalar;
2. Sosial ayırmalar;
3. Qrantlar ;
4. Digər gəlirlər.

Bildiyimiz kimi, 3 əsas qrupda birləşən dövlət büdcəsinin gəlirləri bunlardan ibarətdir. Qeyri-vergili tədiyyələr, rüsumlar və vergilər. Vergilərin və qeyri-vergili tədiyyələrin fərqinə nəzər yetirsək görərik ki, vergilər tutularkən mülkiyyət forması dəyişir. Qeyri-vergili tədiyyələrdə isə vergilərdən fərqli olaraq pul vəsaiti tutulan zaman mülkiyyət forması eyni olaraq qalır. Mülkiyyət forması üzərindəki dəyişiklik vergiləri qeyri-vergili tədiyələrdən fərqləndirən başlıca cəhətlərdən biridir. Lakin tək fərq bundan ibarət deyildir. Qeyri-vergili tədiyyələrə dövlət tabeçiliyində olan

müəssisələrdən tutulan mənfəət və əlavə dəyər vergisini misal göstərə bilərik. Hər iki halda mülkiyyət forması eyni qalır. Buna səbəb isə müəssisənin dövlətin müəssisəsi olmasıdır və müəssisənin bütün vəsaitini də sərəncamı dövlət verir (Ataşov B., Novruzov N., İbrahimov E., 2014). Beləliklə, büdcəyə köçürülən hissəyə də sərəncam dövlət tərəfindən verilir.Burada mülkiyyət forması dəyişmir. Bildiyimiz kimi dövlət büdcəsi haqqında qanuna görə vergilərdən başqa gömrük rüsumları da dövlət gəlirlərinə daxilolmaların bir hissəsini təşkil edir. Gömrük rüsumları tətbiq olunarkən vergilərdən fərqli olaraq müəyən xidmət qarşılığında tətbiq olunur. Vergilərdən fərqli olaraq əvəzsiz ödəniş deyildir. Qeyd olunmuş göstəricilər vergiləri gömrük rüsumların fərqləndirən əsas amillər hesab olunur. Gömrük rüsumlarına daha ətraflı şəkildə nəzər salaq. Rüsumlar idxal və ixrac əməliyyatları zamanı tutulur. Gömrük Məcəlləsi gömrük işinin əsaslarını müəyyən edir və Azərbaycan Respublikasının suverenliyinin, iqtisadi təhlükəsizliyini, maraqlarının qorunmasına, iqtisadiyyatın dünya təsərrüfatı ilə qarşılıqlı əlaqələrinin genişlənməsinə, öz vəzifələrini yerinə yetirmələrinə yönəldilmişdir.

Qanunvericiliyə əsasən gömrük tarifinin məqsədi Azərbaycan Respublikası idxalının əmtəə struktunu səmərəli etmək, malların idxalı, ixracı, valyuta gəlirlərinin, xərclərinin əlverişli nisbətini müəyyənləşdirmək və sairədir. Gömrük rüsumları müəyyən xidmətə uyğun olaraq tətbiq olunur. Yəni, vergilərdən fərqli olaraq xidmət qarşılığında tətbiq olunur. İdxal və ixrac məhsullarına gömrük rüsumları tətbiq edilir və ödənilməsi tələb olunur.

Dövlət gəlirləri büdcənin əsas hərəkətverici qüvvəsi hesab olunur və mürəkkəb quruluşa malikdir. Dövlət gəlirləri çoxşaxəlidir tərkibi olduqca genişdir. Dövlət gəlirlərinə aşağıdakı gəlirlər daxildir.

- Dövlətin sərvətindən istifadəyə görə tutulan gəlirlər;
- Vergi təbiətli dövlət gəlirləri;
- Vergilər;
- Borclanmadan gələn gəlirlər;
- Xəzinənin imkanlarından istifadə edilməklə əldə edilən gəlirlər.

Yuxarıda qeyd olunmuş bu gəlirlər də öz növbəsində həqiqi dövlət gəlirlərinə və fövqəladə dövlət gəlirlərinə ayrılır (Məmmədova E.İ., Novruzov N.A., 2018). Dövlət sərvətindən istifadəyə əsasən əldə olunan gəlirlər dövlət gəlirləridir Fövqəladə dövlət gəlirləri isə xəzinədən istifadə ilə əldə olunur. Dövlət gəlirləri və fövqəladə gəlirlərinə müqayisəli təhlil edək. Dövlət fövqəladə gəlirlərin artımına maraqlı ola bilməz. Çünki, fövqəladə gəlirlər xəzinədən formalaşır. Daha dəqiq desək qiyməti kağızların satışından əldə olunan gəlirlər hesabına formalaşır. İstiqrazların, veksellərin satışı zamanı əldə olunan gəlirlər fövqəladə gəlir kimi dövlət gəlirlərinə daxil olur. Lakin bildiyimiz kimi bu gəlirlər ödənilməlidir, bir növ borc, öhdəlik hesab olunur. Bu səbəblərə görə də dövlət fövqəladə gəlirlərin artımına qətiyyən maraqlı deyildir. Dövlət gəlirlərindəki vəziyyət isə tamamilə əksdir. Belə ki, dövlət gəlirlərinin artımı büdcə gəlirlərinin artımına gətirib çıxarır ki, bu da dövlətin öz funksiyalarını yerinə yetirə bilməsi üçün təkan yaradır. Beləliklə, dövlət gəlirlərinin artımı müsbət, fövqəladə gəlirlərin artımı isə mənfi istiqamətdə nəticələnə bilər.

İlk öncə sosial-iqtisadi şərtlərinə görə gəlirləri təsnifləşdirək.

- Müəssiələrin təsərrüfat fəaliyyətindən əldə olunan gəlirlərdən daxilolmalar;
- Özəlləşdirmədən daxil olan gəlirlər;
- Xarici iqtisadi əlaqələrdən daxil olan gəlirlər;
- Bank və sığortadan daxil olan gəlirlər;
- Broker və digər vasitəçilik xidmətlərindən daxilolamalar;
- Rüsumlar;
- Aksizlər ;
- Sair gəlirlər.

Burada sair gəlirlərə sahibsiz malların müsadirəsindən əldə olunan gəlirləri, sıradan çıxmış əmlakın satışını və başqalarını misal göstərə bilərik. Sahibsiz mallar dedikdə sahibi naməlum olan malların özgəninkiləşdirmək, müsadirə olunması zamanı dövlətin əldə etdiyi gəlirləri misal göstərə bilərik. Yuxarıda büdcə

daxilolmalarının bir çox növünü sadaladıq. Lakin bildiyimiz kimi büdcə gəlirlərinin formalaşmasında əsas yeri vergilər tutur. Vergilər isə müvafiq qanunvericiliklə tənzimlənir. Burada daha çox pay fiziki şəxslərdən tutulan vergilərə məxsusdur. Belə ki, əhalidən tutulan vergilər içərisində gəlirvergisi böyük paya sahibdir. Gəlir vergisi əhalinin real gəlirləri ilə düz mütənasibdir. Büdcə sisteminin sair gəlirlərinə dövlət mülkiyyətli əmlakdan istifadəyə görə gəlirləri də aid etmək olar. Belə ki, tək dövlət mülkiyyəti yox həm də bələdiyyə mülkiyyəti mövcud olduğu halda bu mülkiyyıtin satışı və icarəyə verilməsindən əldə olunan gəlir bu gəlirlərdən olan tədiyyələrin tərkibinə daxil olacaqdır (Ələkbərov Ə.Ə.,2007).

Dövlətin sosial-iqtisadi siyasətinin yürüdülməsində əsas təkanverici qüvvə məhz onun büdcə sistemidir. Çünki, büdcə sistemi olmasa dövlət öz funksiyalarını yerinə yetirə bilməz yəni, nə gəlirləri toplanılması nə də xərclərin düzgün istiqamətləndirilməsi prosesi düzgün ola bilməz. Qeyd olunmuş büdcə dövlətin gəlirlər və xərcləri arasındakı fərqi özündə əks etdirən maliyyə planıdır. Gəlirlər köçürülmə qaydalarına görə 2 yerə bölünür. Bunlar təhkim olunmuş və nizamlandırıcı gəlirlər, dotasiya, subvensiya, subsidiyaya, xüsusi və borc alınmış vəsaitlərə bölünür.

Gəlirlərin digər forması hesab olunan nizamlaşdırıcı gəlirlər bölüşdürülən gəlirlərdir. Belə ki, dövlət büdcələri təsdiq olunduqda büdcə həlqələri arasında müvafiq ayırmalar şəklindəki ödəmələrdir. Bu gəlirlərin hissəsi müvafiq olaraq qanunda göstərilir (Ataşov B., Novruzov N., İbrahimov E., 2014). Nizamlaşdırıcı gəlirləri təhkim olunan gəlirlərdən fərqləndirən əsas xüsusiyyət odur ki, bu gəlirlərin bölgüsü hər il müəyyənləşdirilir.

Büdcə prosesləri dövlət tərəfindən qəbul və idarə edilən büdcə qanunvericiliyinə əsaslanır. Büdcə gəlirləri müxtəlif adlar altında yığılır və idarə edilir. Büdcə gəlirləri dotasiya və subvensiya şəklində də ola bilər. Dotasiya və subvensiya adlanan iqtisadi kateqoriyalar ölkə iqtisadiyyatının dirçəlmasində mühüm rol oynayır. Belə ki, yuxarıda qeyd olunmuş ayırmalar yuxarı büdcədən

aşağı büdcə həlqəsinə daxil olan vəsaitdir. Ayrı-ayrı şərtlər daxilində bu iqtisadi kateqoriyalar yuxarı büdcə həlqələrndən böllüşdürülür.

Fərdlər, müəssisələr, dövlət və s. üçün gəlir nə üçün önəmlidir? Bu sualın cavabı birinci fəslin birinci hissəsində özünü əks etdirir. Ayrı – ayrı şəxslər, müəssisələr, dövlət və s. üçün gəlir çox önəmlidir. Çünki, gəlir fərdlər arasında əlaqələrdə zəruri, həyat səviyyəsinin yüksəldilməsi üçün çox zəruridir. Gəlir, sosial mühitdə qərar vermə vəziyyətində söz sahibi olmaq baxımından da çox önəmlidir. Hətta kapitalist dövlət konstitusiyalarında yazılı olan fərdi səyahət haqqı, çalışma əmək haqqı kimi insan haqlarından faydalana bilmək ancaq gəlir ilə mümkündür. Sivil qanunun haqq sahibi şərtindən haqlarından istifadə edə bilmək səbəbindən şərtinə keçmə də bir gəlir sahibi olmaqla mümkündür. Bu səbəbdən gəlir konsepsiyası ilə fərdlərin pul idarəsi ilə ifadə olunan mücərrəd mal varlığının kənarına çıxaracaq. Əsas məslə mal varlığının fərdə təklif etdiyi istehlak, istehsal, sosial güc və etibar imkanlarını başa düşməyimiz lazımdır. Milli gəlirə oxşar şəkildə fərdi gəlir də istifadə dairəsi olaraq istehlak və yığıma ayrılır (Ataşov B., Novruzov N., İbrahimov E., 2014). Gəlirin yenidən bölgüsü mövzusunda təzadlı fikirlərin foksunda ümumi dövlət gəlirlərinin sadəcə istehlaka yönləndirilən bölməsi yer alır. Çünki, yenidən bölgü siyasəti həyata keçirilərkən məqsəd gəlir sahibinə yığım etmə və ya istehlaka girmə imkanı ya da ümumi güc və etibar mənbəyi ilə təmin etməyib bazardan təmin edə bilmədiyi bəzi istehsal mallarına qovuşma kanalı açır. Bu vəziyyətdə, gəlirin yenidən bölgü siyasətinin sonda milli gəlirin bölgüsündə istehlak xanası genişlənməkdə, bunun əksinə, təbii olaraq yığım xanası kiçilməkdədir.

Gəlir, müasir iqtisadiyyatda pul formasında ifadə edilir. Fərdin və ya fərdlərin müəyyən bir müddət ərzində sahib olduğu pul dəyərinin cəmi nominal gəlir adlanır. İnflyasiya müddətində nominal gəliri satınalma, alıcılıq gücünü tapa bilmək üçün qiymət dəyişmələrində müəyyən fərqlər tapılır. Real gəlir, nominal gəlirin inflyasiyaya görə dəyişmə şəklidir. Nominal və real gəlirə nümunələr ilə nəzər yetirək. Nominal gəlir müəyyən məkanda və vaxtda müəyyən valyuta vahidindəki gəlirdir. Məsələn, bu ay 1000 manat qazanıldı. Burada 1 ay ərzində qazanılan 1000

manat nominal gəlirdir.Real gəlir pulun ala biləcəklərinə çevirmə cəhdidir. Məsələn, əsas fərq ümumiyyətlə inflyasiyanı nəzərə alır. Bəzi hallarda isə yerlər arasındakı qiymət və ya məzənnə fərqlərini də nəzərə almaq lazımdır. Məsələn, Alyaskada işçi 1200 dollar ala bilər və hələ də normal xərclənmə gücündə yalnız 1000 dollara sahibdir, çünki qiymətlər ölkənin əksər hissəsinə nisbətən daha yüksəkdir. Bu, pulun haradan alındığına görə tənzimləmə nümunəsi ola bilər.

Gəlir büdcəsinin hazırlanmasında iki üsuldan istifadə edilə bilər.

1)Avtomatik üsul: Tətbiq etməsi bitmə müddəti son bir neçə ilin büdcə rəqəmlərinin ortalaması və ya son ilin təsdiqlənmiş gəlir rəqəmlərini yeni maliyyə ilinin gəlir təxminlərinə əsaslanır.

2)Birbaşa qiymətləndirmə metodu. Maliyyə nazirli və ya idarəetmə sisteminə görə Prezident tərəfindən hüquqlarından istifadə etməklə hazırlanır.

Qeyd: Gəlir büdcəsinin hazırlanmasında yuxarıda qeyd olunmuş hər iki metoda nəzər saldıq. Bu metodlar dünya təcrübəsində fərqli ölkələrdə müxtəlif cür tətbiq olunur. Belə ki, qonşu ölkələrə nəzər yetirsək görərik ki, iqtisadi cəhətdən digər qonşu ölkələrdən kifayət qədər güclü olan Türkiyədə birbaşa qiymətləndirmə metodu tətbiq edilməkdədir. Gəlir büdcəsinin hazırlanmasında tətbiq olunan hər 2 metoda ayrı-ayrılıqda nəzər yetirək. Yuxarıda qeyd olunan avtomatik üsul zənnimcə daha əlverişli üsuldur. Çünki burada müəyyən illər, baza illəri əsas götürülür. Yəni, büdcə göstəriciləri hesablanarkən nəzərdə tutulmuş illərin müvafq göstəriciləri əsas götürülməklə tətbiq olunur. Bu göstəricilər seçilərkən başlıca məqam göstəricilərin son illərə aid olmasıdır. Daha çox son 5 ilin göstəricisindən istifadə olunur. Daha öncəki illərin göstəricilərindən daha az istifadə olunmasının səbəbi iqtisadiyyatda olan başlıca dəyişikliklərdir. Məsələn, 10 il öncə dövlət gəlirlərinin tamamilə vergidən asılı olan ölkə indiki dövrdə turizmdən asılı ola bilər. Bu səbəblərə görə də son illərin göstəricilərindən istifadə olunsa daha dəqiq proqnozlar vermək mümkün olar. Dövlət gəlirlələrinin, iqtisadi artımın, dövlət xərclərinin və bu kimi iqtisadi kateqoriyaların hesabatlarına dair proqnozlar verilərkən son illərin göstəriciləri

nəzərə alındıqda nisbətən dəqiq proznoz vermək mümkün olur. Məsələn 2022-ci ilin dövlət gəlirlərinə və xərclərinə dair proqnozlar verilərkən, 2020-2021-ci ilin eyniadlı iqtisadi kateqoriyalarının qiymət göstriciləri nəzərə alınmalıdır. 1998 və bu kimi illərin göstəriciləri nəzərə alınsa proznoz göstəriciləri tamamilə yalnış istiqamətdə baş verər. Qeyd olunmuş səbəbləri nəzərə alsaq dövlət gəlirlərinin, büdcənin iqtisadi proznozlarına nisbətən diqqət yetirmək mümkün olar.

### 1.2. Dövlət gəlirlərinin maliyyə menecmentinin təşkilinin əsasları

Azərbaycan Respublikasının dövlət büdcəsinin əsas məqsədi ölkənin sosial, iqtisadi proqramlarının, habelə problemlərinin həlli üçün qanunvericiliklə nəzərdə tutulmuş qaydada maliyyə vəsaitinin toplanması və maliyyə vəsaitlərindən səmərəli istifadəni təmin etməkdir. Maliyyə vəsaitlərinin toplanması, idarəolunması Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə tənzimlənir. Dölət gəlirlərinin ayrı-ayrı hissələri müvafiq bəndlərdə qeyd olunur, rəqəmlərlə öz əksini tapır. Azərbaycan Respublikasının dövlət büdcəsinin gəlir və xərcləri mərkəzləşdirilmiş və yerli gəlir və xərclərdən ibarətdir. Mərkəzləşdirilmiş gəlir dövlət büdcəsində büdcə gəlirləri çıxıldıqdan sonra formalaşan gəlirdir. Dövlət büdcəsinin böyük hissəsini büdcə gəlirləri təşkil edir. Mərkəzləşdirilmiş gəlirlər isə ümumi dövlət gəlirlərindən büdcə gəlirlərinin çıxılması ilə tapılır. Dövlət gəlirlərinin tərkib hissəsini təşkil edən mərkəzləşdirilmiş gəlirlər mühüm iqtisadi kateqoriyanı özündə əks etdirir. Dövlət büdcəsinin tərkib hissəsinə yerli gəlirlər və xərclər də daxildir.(Məmmədova E.İ., Novruzov N.A., 2018).

Dövlət gəlirlərinin maliyyə menecmentinin təşkilinə nəzər yetirdikdə ilk növbədə büdcə sisteminin təkmilləşdirilməsinə nəzər yetirək. Belə ki, büdcə sisteminin təkmilləşdirilməsi üçün ilk növbədə onun tərkibini və büdcə siyasətini müəyyən etmək lazımdır. Dövlət büdcəsinin tarazlaşdırılması əsas amillərdən biridir.

Gəlir büdcəsinin hazırlanmasında başlıca məhsuliyyət Maliyyə Nazirliyinin üzərinə düşür. Dünya ölkələrinin təcrübəsinə nəzər yetirdikdə də prosesin eyni olduğunu görərik. Qonşu ölkələrin iqtisadi  təcrübəsinə diqqət yetirək. İlk öncə

Türkiyə iqtisadiyyatına nəzər yetirək. Belə ki, Türkiyə iqtisadiyyatına nəzər yetirsək görərik ki, gəlir büdcəsinin hazırlanması “Maliye Bakanlığı Gelir Politikaları Genel Müdürlüğü” həyata keçirir. Büdcənin gəlir vəxərcləri sadəcə proqnoza əsaslanlr. Gəlirin təxminedilməsi növlərindən biri də avtomatik təxminetmədir. Avtomatik təxminetmədə, son bir vı ya bir neçə ilin büdcə hesablaması daha dəqiq desək gəlir və ya xərcləri növbəti ilin təxmini olaraq büdcə gəlirləri , xərcləri kimi qəbul edilir. Dövlət gəlir mexanizminin daxilində gəlirin yenidən bölüşdürülməsində iştirak edə bilən mexanizm vergilərdir. Borclanma da bir növ dövlət gəliridir. Ancaq borclanma gəliri yenidən dəyişildiyi zaman tarazlaşdırılmır, əksinə, gəliri tamamilə əksinə çevirir (Ataşov B., Novruzov N., İbrahimov E., 2014:s.54). Çünki dövlətət borc verə biləcək yüksək gəlirli müəssisələr, verdiyi borc qarşılığında olduqcaq yüksək faiz gəliri əldə edirlər. Bu zaman gəlir azalması ilə nəticələnmə aşkardır.

Gəlir üzərindən alınan birbaşa vergi olan gəlir vergisi, vergi ödəmə gücünə ən çox yaxınlaşan subyektiv vergilərdəndir. Vergi, gəlirin tipinə görə fərqli və gəlirin böyüklüyünə görə də artan tarifə uyğunlaşdırılaraq subyektivləşdirildiyindən vergi ədalətinə ən yaxın olduğu kimi vergi tətbiqetmə və faizlərdə gərəkli dəyişikliklər edilərək gəlir bölgüsü üzərində əsaslı ola bilər. Əsas məsələ subyektivləşdirmənin gəlir bölgüsü mövzusunda təsirli ola bilməsi, onların gücünə və təsir qüvvəsinə bağlıdır. Məsələn, yaşayış minimumunun azaldılması nəticəsində insanlar qeyri zəruri tələbatlarını azaldacaqlar. Gəlir artdıqca faizin yüksəldiyi artan faizli tarifin rifah iqtisadiyyatı tərəfindən əsas məqsədi, gəlir bölgüsünü düzəltmək yox, gəlirin azalan marjinal xeyrini fərz etmək dözlət gəlirinin təmin edilməsində sosial qurbanların ən aşağı səviyyədə tutmaqdır. Rifah nəzəriyyəsi tərəfindən açıqlama olmaqla bərabər, artan faiz dərəcəsinin, tarif yüksəkliyindən asılı olaraq , gəlir bölgüsünü bir qədər düzəldə biləcəyi fərz olunur. Bunun əksinə, sistemdə olan bəzi endirim və sərbəstliklər artan faizli tarifin effekt gecene zəiflədə bilər. Məsələn, gəlir vergisində tətbiq olunan ümuimi istisna və sərbəstliklər verginin tətbiq edilmə və toplanılma arasındakı vaxtın təxmini bir ilə yaxın olması, məcburi tərəfə yəni vergi ödəyicisinə faizsiz istifadə etmə imkanıverdiyinə görə gəlir bölgüsünün pozulması

effekti ilə nəticələnir. Bunlardan əlavə vergidən yayınma da verginin gəlir bölgüsünün üzərindı yüngülləşdirici və pozucu effet yaradır.

Gəlir növü vergilərdə gəliri yenidən və müsbət tərəfdə dəyişdirə bilən effektli sistem neqativ gəlir vergisi tətbiq edilməsidir (Məmmədova E.İ., Novruzov N.A., 2018). Neqativ gəlir bölgüsü tətbiqində bütün fərdlər nəzəri olaraq vergi yüklüdür və vergi artan faizlidir. Yəni, bütün fərdlər vergi ödəyicisidir. Ödəyicilər, gəlirlərini bəyan etdiklərində gəlirin müəyyən miqdardan çox olması vəziyyətində artan faiz öhdəliyi əlbəttə ki, olacaqdır. Müəyyən miqdardan az olduqda isə maliyyə dəstəyi almaq ehtiyacı yaranır. Beləcə bütün vergi ödəyiciləri müəyyən minimum gəlir alır və hərkəsin bu vəziyyətin üzərində olması qarantiyə alınır. Aydındır ki, bu tətbiqetmə gəlir bölgüsündə ən aşağı və ən yuxarı gəlir arasındakı fərqi belə bir tətbiqetmənin olmaması vəziyyətinə görə daha aşağı vəziyyətdə olur. Hüquqi şəxs olan müəssisələrə aid olan idarə və təşkilatlar isə gəlirə görə alınan birbaşa vergi olmaqla bərabər fərdi gəlir vergisi kimi subyektiv olmayıb sabit dərəcəli tətbiq olunan bir öhdəlikdir. Müəssisı sahiblərinin adətən yüksək gəlirli insanlar olduğu fərziyyəsinə əsasən, dividentə əlavə yük yığaraq gəlir bölgüsündə ədalətə yaxın effekt yaratdığı düşünülən müəssisələr vergisi effektini nisbətən itirməkdədir. Bundan əlavə, gəlir vergisində olduğu kimi, müəssisələrin vergisində də etibarlı olan ümumi istisna və azadolmalar da verginin zəif olan gəlir bölgüsü təsirini daha da gücləndirir.

Dövlət gəlirlərinin maliyyə menecmentinin idarə edilməsinin əsasını yenidən gəlir bölgüsü siyasətinin sərhədləri təşkil edir. Maliyyə siyasətinin məqsəd funksiyası içərisində yer alan yenidən bölgü siyasəti, sosial və iqtisadi olmaqla ,bərabər işləyən və bir birinə təsir edən üçlü bir funksiyadır (Ələkbərov Ə.Ə.,2007). Bu funksiyaların hər biri olduqca vacibdir və bir biri ilə çox sıx əlaqəlidir. Gəlirin yenidən bölgü siyasətinin bazasını tuta bilmək və sistemin boşluq və pozuntularını bir səviyyəyə qədər gətirərək sistemi qanuniləşdirə bilmək üçün siyasi bir məqsəd daşıyır. Sistemin boşluqlarının və qanun pozuntularının həll olunması qarşıya qoyulmuş məqsədlərdən biridir.

Vahid büdcə təsnifatına əsasən büdcə gəlirləri aşağıdakı 4 kateqoriyadan ibarətdir.

1. vergilərdən daxilolmalar;
2. sosial ayırmalar;
3. qrantlar;
4. digər gəlirlər.

Vergi Məcəlləsinə əsasən Azərbaycan Respublikasında dövlət vergiləri, muxtar və yerli vergilər müəyyən edilir və ödənilməsi həyata keçirilir.Vergi Məcəlləsinin 11-ci maddəsinə əzər salaq. Vergiləri digər icbari ödənişlərdən fərqləndirən cəhət ödənişin məcburiliyi və əvəzsizliyidir. Vergilər həm də soail problemləri həll etmə vəzifəsini daşıyır. Belə ki, vergilər dövlət və bələdiyyələrin maliyyə təminatı şəklində qəbul edilir (Ataşov B., Novruzov N., İbrahimov E., 2014).Vergiləri fərqləndirən amillərdən biri vergi bazasıdır. Belə ki, vergi bazasına əsasən vergilər mıcmu gəlirlər, mal dövriyyəsinin həcmi, əmək haqqı, idxal olunan mallar, mülkiyyət və s. kimi çıxış edə bilər. Belə ki, hər il dövlət büdcəsi qanunu qəbul edilərkən həmin dərəcələr yenidən nəzərdən keçirilir. Azərbaycan Respublikası dövlət büdcəsi mədaxiliin böyük hissəsi vergilərin payına formalaşır. Vergi Məcəlləsini əsasında onun icrası məqsədi ilə qəbul edilmiş normativ-hüquqi aktlar Vergi Məcəlləsinin müddəalarına zidd olmamalıdır. Vergi Məcəlləsində qeyd olunmuş maddələr ilə qanunvericiliklə nəzərdə tutulmuş şəkildə vergi tutulması tənzimlənir. Bu maddələr ilə vergilərin tətbiqi tənzimlənir. Vergi Məcəlləsindəki maddələr müvafiq nömrələr ilə sıralanır və adlandırılır.

Vergi Məcəlləsində vergilərin müəyyənləşdirilməsi və tutulması maddələri öz əksini tapır. Bu maddələr aşağıdakılardır.

- vergilər haqqında qanunvericilik bərabər, ümumi və ədalətli vergi tutmaya əsaslanır.
- vergilər iqtisadi cəhətdən əsaslandırılmalıdır.
- konstitusiya hüquqlarının və azadlığının həyata keçirilməsinə maneə törədən verginin müəyyənləşdirilməsinə yol verilmir.
- hər bir şəxs əldə etdiyi gəlir və ya mülkiyyətdən bir dəfədən artıq vergi ödəyə bilməz.

- vergi sistemi investisiya və ya sahibkarlıq fəaliyyətini təsdiq etməlidir.

Xarici iqtisadi fəaliyyət ilə bağlı tutulan vergilər isə müvafiq Vergi Məcəlləsinə və Gömrük qanunvericilik ilə müvafiq olaraq qruplaşdırılmışdır.

Dövlət gəlirlərinin digər forması qrantlardır. Qrantdan istifadə layihə və proqramlarının istifadəsində iştirak edən fiziki şəxslər resipiyentdən əldə etdikləri haqdan mövcud qanunvericiliyə uyğun olaraq gəlir vergisi tutulur. Laskin fiziki şəxslər haqqa görə respiyent icbari ödənişlərdən azaddır.

Dövlət gəlirlərinə daxil olan digər daxilolmalara nəzər salaq. Digər daxilolmaların tərkibinə həm də hüquqi şəxslərə verilən kreditlər daxildir. Müəyyən hallarda müəssisə və təşkilatlar həmin kreditlər qaytarmaq gücündə olmadıqda döblət büdcəsi vasitəsi ilə kreditlər qaytarılır. Cərimə və sanksiyalar üzrrə daxilolmalar dövlət gəlirlərinin bir hissəsini təşkil edir. Vergiyə aid edilməyən sair gəlirlərin strukturuna vergilərə görə maliyyə sanksiyaları, faiz və Azərbaycan Respublikasında istehsal olunub və tənzimlənən qiymətli məhsulların ixracı zamanı ixrac xərcləri çıxılan yəni kontrakt qiyməti ilə respublika daxili müəssisə və topdansatış qiyməti arasındakı fərqin 25%-inin büdcəyə alınması aid edilir. Cərimə və sanksiyalar əsasən müəyyən qanun pozuntuları əsasında tətbiq edilir. Məsələn, vergidən yayınma halı ba verdikdə şəxsin vergidən yayınmasına görə cərimə tətbiq olunur və bu cərimə, cərimə və sanksiyalar üzrə daxilolmalarda öz əksini tapır. Ayrı-ayrı vergilərin ödənməməsinə görə, daha dəqiq desək vergidən yayınma hallarına görə eyni adlı vergiyə uyğun olara müvafiq cərimə və sanksiyalar tətbiq olunur. Azərbaycan Respublikasında dövlət büdcəsinin hüquqi əsaslarına Büdcə sistemi haqqında AR Qanunu, AR-nın Konstitusiyası, AR-nın tərəfdar çıxdığı beynəlxalq müqavilələr daxildir.

### 1.3. Azərbaycanda dövlət gəlirlərinə təsir edən amillər

Dövlət gəlirlərinin iqtisadiyyat üzərində mikro və makro təsirlərinə nəzər yetirək. Mikro təsirlərə gəlir bölgüsü və resursların istifadəsindəki səmərəlilik,

makro təsirlərə isə istehsal tutumu, qiymətlərin ümumi səviyyəsi, məşğulluq nisbəti, iqtisadi böyümə artma üzərindəki təsirləri misal göstərə bilərik.

Dövlət gəlirlərinin mikro və makro səviyyədə əmələ gətirdiyi bu təsirlər aşağıdakı kimi təsnifləndiriləcəkdir. Belə ki, bu prosesdə dövlət gəlirlərinin əldə edilməsində ödəyicilərin sərbəst iradəsinin olub olmadığı xüsusiyyətlərinə görə vergi xarici gəlirlər və vergi və oxşar gəlirlər kimi qruplaşdırılacaqdır. Vergi və oxşar gəlirlərin təsirinə nəzər salaq. Burada vergi, rüsum, fiskal gəlirlər, xərc kimi ödəyicinin istəyindən asılı olmayaraq məcburi əldə olunan gəlirlər vergi və oxşar gəlirlər kimi təsnif olunur. Bu gəlirlərin ödəyici tərəfindən ödənməsi məcburidir.

Müəyyən gəlir səviyyəsində vergilərdəki artmlar vergi ödəyicilərinin gəlirlərini azaldır. Buna görə də onların daha az istehlak etməsinə səbəb olur. Vergilərdə azalmalar olduqda isə istehlakçıların daha çox xərcləməsinə səbəb olur. Hər iki halda məcmu tələb dəyişir.

Real ÜDM üzərindı vergi nisbətlərndəki dəyişmənin təsiri, vergilərin gəlirlərdən asılı olun olmamağına görə dəyişməkdədir. Bu kateqoriyaya əsasən sadələşdirilmiş vergilər daxildir. Dövlət xərclərinə təsiri (1/1-c) olduğu halda vergi ödəyicilərinin gəlirlərini azaltdığından mənfi qiymətlidir. Məcmu tələbdəki azalma, verginin bir hissəsi ehtiyyatda saxlanılan pullardan ödənildiyinə görə ödəyicilərin marjinal istehsalı maili nisbətdə olacaqdır. Ehtiyatda olan pulların vergi ödənişinə görə azalması isə məcmu tələbdə olan enişi azaldacağından, bu cür vergilər gəlirə bağlı vergilərdən daha təsirli olur. İkinci halda isə vergilər gəlirlərdən asılı olur. 2002-ci il iyul 2-də dövlət başçısı tərəfindən Büdcə sistemi haqqında yeni qanun layihəsi qəbul edildi. Dövlət büdcəsinin gəlirləri, xərcləri, həmçinin büdcə kəsri və onun maliyyələşmə mənbələri ilə bağlı informasiyalar bu proqnozlarda əks etdirilir.

Azərbaycanda dövlət gəlirlərinə vergidən başqa digər amillər də təsir edir. Bildiyimiz kimi dövlətin gəlir mənbəyinin çox hisəsini vergilər təşkil edir. Dövlət xərclərini qarşılamaqda isə vergidən əldə olunan gəlirlər kifayət etmir. Buna görə də vergidən başqa digər gəlir növlərinə də ehtiyac yaranır. Dövlət gəlirlərinin müəyyən

hissəini də emissiya gəlirləri təşkil edir. Bunlara emissiya, dövlətin pul çıxartma haqqı ilə əlaqədar olaraq Mərkəzi Bankd tərəfindən bazarın pul ehtiyacını qarşılamasıdır. Milli Bank bazarın pul tələbinə görə pul təklifini artırıb azalda bilər. Emissiyanın artırılmasının iqtisadiyyatın təklif elastikliyinin az olduğu hall üçün araşdıraq. Bu halda emissiya nəticəsində artan pul təklifi bazarda tələbi artırır. Lakin təklif elastikliyi aşağı olduğuna görə istehsal eyni şəkildə artmır. Buna görə də istehsal aşağı puı təklifi yüksək olduğuna görə qiymətlərin ümumi səviyyəsində artımlar meydana gəlir. Buna görə də inflyasiya meydana gəlir. Dövlət emissiyadan əldə olunan gəlirlərin artmasına maraqlı deyildir. Buna başlıca səbəb isə tələblə təklif arasında baş verəcək qeyri tarazlıq və buna görə də inflyasiyanın baş verməsidir. Ölkədə inflyasiya hökm sürdükdə milli valyuta dəyərdən düşür və ölkə iqtisadiyyatının inkişafı demək olar ki, yox səbiyyəsində olur.

Dövlətin vergidən başqa digər gəlir növlərinə sadə veksel və istiqraz da aiddir. Belə ki, dövlət sadə verksel və istiqraz kimi borclanma sənədlərindən faiz qarşılığında gəlir əldə edir. Bu borclanma həm ölkədaxili həm də ölkəxarici bazarlarda həyata keçirilir. Buna görə də iki şəkildə təsnifləndirilməkdədir. Aşağıda borclanma mənbələri qeyd olunmuşdur.

- daxili borclanma
- xarici borclanma

Daxili borclanma zamanı dövlətin daxilində fərdlərdən və müəssisələrdən reallaşdığı borclardır. Daxili borclanmada pula olan tələb faiz nisbətlərii artırır, buna görə də özəl sektorun investisiya xərcləri artır. Bu səbəbdən daxili borclanmada olan artım özəl sektorun kənarlaşdırılmasına səbəb olur. Borclanmanın ikinci növü isə ölkəxarici bazarlarda reallaşır. Xarici borcların artması tamamilə təhlükəlidir. Bu səbəblərə görə ölkə daxili və xarici borclanma arasında seçim etmək məcburiyyətində qalsa əlbəttə ki, daxili borclanmasnı seçəcəkdir. Fərdlər və müəssisələrin isə verksel və başqa qiymətli kağızlar almaqda başlıca səbəbi dövlətin əsas faktor kimi məsuliyəti hesab olunur. Dövlət büdcəsi xərclərinin aşağıdakı 2 əsas növü fərqləndirilir. Kiçik və orta biznesin dəstəklənməsi üçün hazırlanan

proqramların maliyyə vəsaiti ilə təmin olunması zamanı dövlət büdcəsinin əsas öhdəlikləri. AR-nın daxili potensialından istifadə. Hər iki hall iqtisadiyyatın inkişafına xidmət göstərir.

2020-ci il “Qlobal karantin” səbəbi ilə dünya iqtisadiyyatının zəifləməsi tendensiyasının kəskinləşməsi və xəstəliyin davametmə müddətinin artması, eləcə də xəstəliyin genişlənmə miqyası dövlət gəlirlərinə mənfi təsir göstərdi. Burada tək Azərbaycanda dövlət gəlirləri yox, beynəlxalq təcrübədə dünya ölkələrinin gəlirlərindən söhbət gedir. Belə ki, bildiyimiz kimi bəzi ölkələrinin iqtisadiyyatının inkişaf səbəbi, gəlirlərinin əsas hissəsi turizmdir. Pandemiya səbəbindən 2020-ci ildən dünya ölkələrində həmçinin Azərbaycanda müəyyən qapadılmalara görə turizm gəlirləri yox səviyyəsindədir. Bu kimi amilləri nəzərə alaraq iqtisadiyyatın zəifləməsi tendensiyası 2020-ci ildə artmaqdadır. Hava və yol nəqliyyatının demək olar ki, dayanması da iqtisadiyyatın zəifləməsinə səbəb olan amillərdən biridir. Ticarət əlaqələrinin zəifləməsinə də səbəb pandemiyanın kəskinləşməsidir. Ölkədə idxal və ixracın azalması müvafq rüsumların, vergilərin azalmasına da gətirib çıxarır ki, buna görə də dövlət gəlirləri azalır.

Ümumiyyətlə, büdcə dövlətin maliyyə vəziyyətini özündə əks etdirir. vergi siyasəti  büdcəyə nəzərən müəyyən olunur. Büdcə iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsinə səbəb olur.

Büdcə özündə maliyyə münasibətlərini əks etdirən iqtisadi kateqoriyadır. Büdcənin yaranması və inkişafı dövlətin yaranması, inkişafı ilə sıx əlaqəlidir. Dövlət büdcədən iqtisadi və sosial siyasəti həyata keçirmək və öz funksiyalarını yerinə yetirmık üçün əsas iqtisadı alət kimi istifadə edir (Ataşov B., Novruzov N., İbrahimov  E., 2014:s.76). Dövlət büdcəəsi milli iqtisadiyyatın inkişafında, cəmiyyətin sosial tərəqqisində, istehsalın stimullaşdırılmasında çox böyük rol oynayır. Bu rol özünü həm kəmiyyət həm də keyfiyyət təsirlərində göstərir. Hər bir təsirə ayrı-ayrılıqda nəzər yetirək. İlk öncə kəmiyyət təsirinə nəzər yetirsək görərik ki, bu təsir vəsaitin xərcləmə miqdarını bildirir. Belə ki, dövlət gəlirləri, dövlət büdcəsi xərclənərkən, istifadə olunarkən kəmiyyət miqdarında büdcədə öz əksini tapır. Digər təsir növü

sayılan keyfiyyət təsirini bir-birindən fərqli iki aspektdə nəzərdən keçirə bilərik. Vəsaitlərin səmərəli xərclənməsi meyarları digər tərrəfdən büdcə vasitəsi ilə nəzarət meyarları əsas götürülür. Keyfiyyət aspektlərin iqtisadiyyatın inkişafına mühüm təsir göstərir. Buna görə də büdcə, makroiqtisadi tənzimlənən ən önəmli elementlərdən biridir.

Büdcə vasitəsi ilə ümumi daxili məhsulun yenidən bölgüsünü eyni vaxtda həyata keçirmə bir- biri ilə olduqca sıx əlaqədə olan ikitərəfli prosesdir.

- büdcə gəlirlərinin yaradılması;
- büdcə xərcləri, yəni büdcə vəsaitlərindən istifadə.

Dövlət büdcəsinin bir sıra müxtəlif funksiyaları vardır. Bunlardan biri də nəzarətdir. Belə ki, büdcənin köməyi ilə vəsait yığımına və istifadəyə ciddi nəzarət edilir. Büdcə nəzarəti iqtisadiyyatı, pul vəsaitlərinin hərəkətini, alqı-satqı əməliyyatlarını əhatə edir. Büdcə nəzarəti büdcə sistemindən istifadənin səmərəliliyinə xidmət edir. Büdcə sisteminin səmərəli təşkli dedikdə dövlət gəlirlərindən, büdcə xərclərindən və s. kimi amillərdən səmərəli istifadə nəzərdə tutulur. Burada dövlət gəlirlərinin səmərəli idarə edilməsi prosesi ilə yanaşı dövlət xərclərinin də səmərəli şəkildə bölgüsü, istifadəsi əsas şərtlərdən hesab olunur. Ona görə də büdcənin səmərəli idarə edilməsi dedikdə həm büdcə gəlirlərinin həm də büdcə xərclərinin səmərəli idarəeilməsinə diqqət yetirmək lazımdır. Büdcənin səmərəli idarəedilməsi üçün bir çox metodlar vardır. Bunlara nəzarət metodu da daxildir. Nəzarət metodunun köməkliyi ilə hər bir büdcə prosesinə gəlir və xərclərə nəzarət etmək mümkündür. Büdcə sisteminin səmərəli idarə edilməsi üçün təkcə büdcə nəzarəti kifayət deyildir. Burada əsas məsələ bundadır ki, büdcə üzərində həyata keçirilən prosedurlar bütün büdcə ilini əhatə etməlidir. Bu proses fərqli olduğu istisna hallar da mövcuddur. Belə ki, səmərəli büdcə sisteminin inkişaf etdirilməsi üçün həyata keçirilən islahatlar və təşəbbüslər davamlı olmalıdır. Yalnız müəyyən müdddət islahatlar həyata keçirməklə gözlənilən nəticəyə çatmaq mümkün deyildir. Səmərəli idarəetmə üçün verilən qərarlar uzunmüddətli dövr üçün hazırlanır və nəzərdə tutulmuş uzunmüddətli dövr üçün tətbiq olunur. Büdcənin

səmərəli idarəetməsi üçün büdcə proqnozlaşdırılması da başlıca şərtlərdən hesab olunur. Ortamüddətli büdcə proqnozu hüquqi təşkilati proseslərin inkişaf etdirilməsinə əsaslanır. Lakin bir çox hallda büdcə proseslərinin səmərəli idarə edilməs üçün uzunmüddətli proseslər daha əlverişli olurlar.

# II FƏSİL. RESPUBLİKADA DÖVLƏT BÜDCƏSİNİN GƏLİRLƏRİNİN MALİYYƏ MENECMENTİNİN TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ

## 2.1. Respublikada dövlət gəlirlərinin idarə edilməsinin müasir vəziyyəti

Respublikamızda müasir dövrdə iqtisadiyyatda aparılan islahatlar maliyyə sistemindən, büdcə sistemindən yan keçməmişdir. Müstəqillik dövründə əvvəlki illərdən fərqli olaraq maliyyə sisteminin olduğu kimi qalması, büdcə gəlirlərindən istifadə mexanizminin yenilənməsi maliyyə vəsaitlərinin optimal idarəsinə maneçilik törədirdi. Bu səbəblərə görə də müstəqillik dövründən sonra maliyyə sistemində əsaslı dəyişiklik olmuşdur. Respublikamızda müasir dövrdə beynəlxalq maliyyə institutlarının birbaşa dəstəyi ilə iqtisadi imkanların təhlil edilməsi ilə büdcənin, dövlət gəlirlərinin idarəetmə strukturunda əsaslı dəyişikliklərin olması zərurəti sübut edildi. Bu səbəblərdən dövlət büdcəsi layihəsini tənzimləyən qanun qəbul edildi.

Büdcənin, dövlət gəlirlərinin idarə edilməsinin ənənəvi metodlarına nəzər yetirək. Bu metodlar proqnozlaşdırma və nəzarətdən ibarətdir və büdcənin icrası ilə sıx bağlıdır. Dövlət gəlirlərinin idarə edilməsində əsas metod hesab edilən proqnozlaşdırma metoduna ilk öncə nəzər salaq. Gəlirlərin idarə edilməsində əsas hesab edilən proqnozlaşdırma metodu 2 meyara əsaslanır. Bu meyarlardan biri ayrı-ayrı iqtisadi sahələrin göstəricilərinin qiymətləndirilməsinə əsaslanır. Digər meyar isə dövlət gəlirlərinin proqnozları iqtisadi və sosial inkişafın makroiqtisadi vəziyyətinə əsasən proqnozlaşdırılır. Proqnozlaşdırma prosesinin rəsmi və şəffaf tərzdə olması dövlət gəlirlərinin toplanmasında və inzibatçılıqda hesabatın yaradılması baxımından əsasdır. Büdcə gəlirlərinin proqnozlaşdırılmasının əsas xüsusiyyətlərinə rəsmilik, təşkilati baxımdan sadəlik və şəffaflıq aiddir. Dünya təcrübəsinə nəzər yetirsək görərik ki, az sayda ölkələr dövlət büdcəsinin tərkib hissəsi kimi proqnozlaşdırılmaını təsvir edən rəsmi qaydalara malikdirlər. Büdxə gəlirlərinin proqnozlaşdırılması ən vacib metodlardan hesba olunur. Çox halda büdcə gəlirləri proznozlaşdırılan zaman baza ili, öncəki illər əsas götürülür. Bu vəziyyət bütün ölkələrdə eyni deyildir.

Respublikada proqnozlaşdırma metodunda icra hakimiyyəti orqanlarının gəlirlərinin proqnozlaşdırılmasında istifadə olunan metodlarla yanaşı, Maliyyə Nazirliyinin dövlət gəlirlərini təmin edən müvafiq orqanlar ilə gəlirlərin, daxilolmaların təhlili, gəlirlərin yığımı və müvafiq vergi siyasətindəki dəyişikliklərdə səmərəliliyin qiymətləndirilməsi əsas təsvir olunur. Dövlət büdcəsinə vergi daxilomalarının real artımı, vergi siyasəti tədbirləri, veri yığımları və inflyasiya kimi məlumatların əldə edilməsi Maliyyə Nazirliyinı vergi daxilolmalarının, vergi sistemi fəaliyyətinin qiymətləndirilməsi imkanı verilir. Beləliklə, xam neftin bazar qiymətlərindəki dəyişikliklərə olan həssaslığın vergi daxilolmalarına təsirinin hesablanmasında istifadə edilən model təsvir olunur ( Məmmədova E.İ., Novruzov N.A., 2018).

Azərbaycanda dövlət gəlirlərinin idarə edilməsinin müasir vəziyyətini araşdıran zaman əsasən beynəlxalq təcrübəyə nəzər yetirmək lazım gəlir. Müxtəlif

dünya ölkələrində dövlət gəlirlərinin hesablama və proqnozlaşdırma modellərinin fərqli növləri vardır. Qeyd olunmuş modellərin əsasını iqtisadi dəyişənlərdən, vergi yığımları və bazaları barədə məlumatlardan ibarət olan məlumat bazası təşkil edir. Dövlət vergi bazalarını proqnozlaşdırmaq və hesablamaq məqsədilə nəzərdə tutulmuş müxtəlif mənbələrdən sosial-iqtisadi informasiyaların toplanması, emal edilməsi və təhlili olduqca vacibdir. Vergi bazası kimi adlandırılan məlumat mənbələrinə statistik məlumatlar və hesabat daxildir. Vergi bəyannamələrinə əsasən məlumatlar da vergi ödəyicilərinin davranışı, vergi davranışı barədə ətraflı məlumatları təmin edir. Buna baxmayaraq, qeyd olunmuş mənbədən əldə olunan məlumatlar dövlət vergilərinin hesablanması məqsədi ilə tam istifadə olunmur.

Birinci növbədə, dövlət gəlirlərinin proqnozlaşdırılmasında rəsmiləşdirilmiş, daima məlumat bazasının yeniləndirilməsi mümkün olan model daxil edilməlidir. Xüsusilə, proqnozlaşdırılma daha sadə olmalıdır. Ən əsas şərt isə, proqnozlaşdırma modelinin tamamilə şəffaf olmasıdır (Ataşov B., Novruzov N., İbrahimov E., 2014). Digər alternativ modellər və müxtəlif metodologiyalar dünya ölkələrində müvafiq maliyyə orqanları tərəfindən vergilərin hesablanması və proqnozlaşdırılmasına əsaslandırılır. İnformasiyaların təhlili və mövcudluğu təcrübəsindən asılı olaraq dövlət gəlirlərinin proqnozlaşdırılması üçün müxtəlif modellər tətbiq edilər bilər.

Dünya təcrübəsində geniş istifadə olunan modellərə nəzər yetirək;

- hesablama ;
- ekonometrik modellər;
- hesablanan ümumi balans modelləri;
- mikrosimulyasiya modelləri;

İnkişaf etmiş əksər ölkələr iqtisadi artım və inflyasiya faktoru ilə artırmaqda olan vergi bazasının proqnozuna tətbiq olunan effektiv vergi dərəcəsinə əsasən gəlirlərin hesablanmasına dair bəzi effektiv metodlardan istifadə edirlər. Ekonometrik modellər inkişaf etmiş ölkələrin təcrübəsində artan mikrosimulyasiya və CGE-Hesablanan Ümumi Balans modelləri əsasında qurulur. Maliyyə Nazirliyi hazırki

dövrdə ETR və ekonometrik modellərdən dövlət büdcəsi gəlirlərinin proqnozlaşdırılması üçün istifadə edir.

Dövlət büdcəsinin inkişaf proqnozu zamanı bəzi müxtəlif üsullardan istifadə olunur. Bu üsullardan biri də ekstropolyasiya üsuludur. Bu üsulda əvvəlki ilin, dövrün təcrübəsindən istifadə etməklə proqnoz olunur. Ekstropolyasiya üsulundan az-çox sabit olan büdcənin gəlir və xərcləri üzrə bir sıra maddələrin proqnozlaşdırılmasında istifadə edilir.

Digər üsul isə ekspert qiymətləndirilməsi üsuludur. Bu üsul təsərrüfatın və elmin müxtəlif sahələrinin mütəxəssisləri tərəfindən əsaslandırılan qiymətləndirmə bazasında proqnoz tərtib edilir. Ekspert qiymətləndirmə üsulu ekstropolyasiya üsulundan fərqli olaraq subyektivizm elementinə malikdir.

Dövlət gəlirlərinin idarə olunması məqsədi ilə hər 2 üsuldan istifadə oluna bilər. Hər iki üsuldan istifadə zamanı mütəxəssislərin fikri və inkişafın obyektiv meyli nəzər alınır. Maliyyə qanunauyğunluğunun əsas ekstropolyasiya üsullarından biri də reqressiya xəttidir. Büdcə proqnozunun bu halda üzərində işləyərkən dövlət büdcəsinin yaradılmasına təsir edən müxtəlif amillərin öyrənilməsindən, araşdırılmasından başlamaq olduqca vacibdir. Qeyd olunmuş amillərə ümumdövlət maliyyə ehtiyatlarının mövcudluğu, qüvvələrin inkişafı, təsərrüfat sahələrinin inkişafı, demoqrafik dəyişiklik və sair faktorlar aiddir. Qeyd olunan ikidəyişənli kəmiyyəti olan reqressiya tənliyinə nəzər salaq.

$$\mathbf{U}=\boldsymbol{a_0}+\boldsymbol{a_1}\mathbf{x}$$

Qeyd olunan üsulların tətbiqi zamanı proqnoz edilən dövrdən asılı olmayan müvafiq kəmiyyətlərin qiymətlərinin hesablanması problem kimi meydana çıxır, Qeyd olunmuş təhlil büdcənin real iqtisadi vəziyyəti ilə birbaşa əlaqədədir.

Dövlət büdcəsinin idarə olunmasında olduqca vacib metod hesab olunan proqnozlaşdırmanın növbəti mərhələsi isə büdcə layihəsinin tərtibi prosesidir. Bu prosesin tərtibinin başlıca vəzifəsi yerli idarəetmə orqanları və dövlət hakimiyyəti orqanı üzərinə qoyulmuş funksiyaların müvafiq olaraq dövlət və yerli

özünüidarəetmənin sosial və iqtisadi proqnozlaşdırılmasında nəzərdə tutulmuş tədbirlərin qeyd olunmuş maddi vəsaitin əldə olunması məqsədilə dövlət büdcəsində məzkəzləşdirilmiş pul vəsaitlərinin müəyyən edilməsidir. Azərbaycaycan Respublikasının Maliyyə Nazirliyi proqnoz plan əsasında növbəti gələcək maliyyə dövrünə büdcənin gəlir və xərclər əsasında göstəricilərin layihələrini hazırlayırlar.

Azərbaycan Respublikasının dövlət büdcəsi dövlət vəsaitinin təşkilatlar arasında müvafiq şəkildə bölgüsü üçün dövlət büdcə layihəsini aidiyyatı orqanlarına göndərir. Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilən orta müddətli perspektivə və növbəti maliyyə ilinə icra münasibətini bildirir.

İqtisadiyyatın mövcud imkanlarından və inkişaf səviyyəsindən asılı olmayaraq istənilən ölkədə dövlət büdcəsinin, büdcə xəcrlərinin səmərəli şəkildə idarə olunması bütün dövrlərdən ən vacib problemlərdən hesab olunur. Bu səbəblərə görə də dövlət xərclərinin idarəedilməsi dövlətin, eyni zamanda dövlət büdcəsinin vəzifəsidir. Dövlətin yerli və özünüidarəetmə orqanlarının funksiyalarının və vəzifələri üçün nəzərdə tutulan pul vəsaiti büdcə xərcləri kimi qiymətləndirilir.

Respublikada dövlət xərclərinin idarə edilməsi aşağıdakı mərhələləri əhatə etməlidir.

- qəbul olunmuş, əsaslandırılmış dövlət büdcə siyasətiin və onun əsas məqsədinin reallaşdırılması üçün lazımlı resursların müəyyənləşdirilməsi;
- dövlət büdcə siyasətinin vasitəsilə resursların optimal bölgüsü;
- qarşıya qoyulmuş məsələlərin effektiv üsullarla həlli.

Büdcə xərclərinin lazımi səviyyədə optimallaşdırılması üçün görülən tədbirlərin səmərəliliyi axır nəticə kimi vəsaitlərdən məqsədyönlü istifadənin səviyyəsi ilə, xərclənən dövlət vəsaitinin hər vahidinin istifadə effektivliyi ilə müəyyənləşdirilir. Buna görə də dövlətin malik olduğu məhdud resursların strateji məqsəd və vəzifələrin yerinə yetirilməsini şərtləndirmir. Büdcə xərclərindən səmərəli istifadəyə birbaşa nəzarət olunur. Resursların optimal bölgüsü büdcə xərclərindən səmərəli istifadənin əsasını təşkil edir. Belə ki, büdcə xərclərinin

nəzərdə tutulmuş sahələrə istiqamətləndirilməsi optimal şəkildə bölüşdürülməsə lazımi nəticə almaq qeyri-mümkün olar. Bu səbəblərə görə də büdcə xərclərinin səmərəli idarə edilməsi üçün yuxarıda qeyd olunmuş məsələləri diqqətdə saxlamaq lazımdır.

## 2.2. Dövlət büdcəsinin gəlirlərinin düzgün istiqamətləndirilməsi və beynəlxalq təcrübə, büdcə optimallığı

Bazar münasibətlərinin Respublikamızda daha da gücləndirilməsi ilə əlaqədar olaraq müasir iqtisadi dövrdə mövcud büdcə sisteminin tərtibi, büdcənin icrasında vəsaitlərdən düzgün istifadə zərurəti yaratmışdır. Əks halda büdcə xərclərindən düzgün istifadə olunmasa dövlət öz funksiyalarını yerinə yetirə bilməz.

Beynəlxalq təcrübədə dövlət büdcəsinin, dövlət gəlirlərinin, büdcə gəlirlərinin düzgün şəkildə istiqamətləndirilməsi, doğru idarə edilməsi üçün bir sıra metodlar və tənzimləmə, tarazlıq alətləri mövcuddur.Məlumdur ki, dövlətin öz funksiyalarını yerinə yetirməsi üçün, dövlət büdcə sisteminə daxil olan büdcə xərclərinin lazımi şəkildə təmin olunması üçün büdcə gəlirləri olmalıdır. Büdcə gəlirləri müxtəlif cür təsniflənir. Qeyd olunan bu gəlirlər yerli ( bələdiyyə ) büdcələrinin tərkibinə daxil olan tənzimləyici və xüsusi gəlirlər olmaqla iki hissədən ibarət şəkildə təşkil olunmuşdur.

Azərbaycan Respublikasının qanunvericiliyə əsasən gəlirlərin təhkim edilməsi büdcələrin xüsusi gəlirləri adlanır. Müvafiq büdcələrə, büdcədənkənar dövlət fondlarına nəzərdə tutulmuş qanunvericilik əsasında təhkim olunmuş gəlirlər, vergilər, əvəzsiz ödənişlər aiddir. Qeyd olunmuş xüsusi gəlirlərə aid olan qeyri-vergi gəlirlərinə aşağıdakılar daxildir.

- dövlət, bələdiyyə mülkiyyətindəki əmlakın satışından, əvəz edilməsindən gəlirlər;
- dövlət büdcə sisteminin dogər səviyyəli büdcələrindən büdcə ssudası və maliyyə yardımı kimi vəsaitlər.

XIX əsrin XX əsrin əvvəllərində dövlət büdcə sistemində dövlət gəlirlərinin büdcələr arasında bölgüsü üfüqi bölgü şəklində həyata keçirilirdi. Dövlət büdcəsi, yerli büdcələr daha əvvəllər eyni müstəvidə idi və hər birinə daxil olan gəlirlər, rüsumlar mövcud idi.

Dövlət büdcəsinin gəlirlərinin düzgün istiqamətləndirilməsində büdcə tarazlığının təmin edilməsində vergilərin mühüm rolu vardır. Vergilərdən bu məqsədlə bir alət kimi geniş istifadə olunur. Tədiyyələrin və verginin faiz ifadəsində bir hissəsinin dövlət büdcə sisteminin bir həlqəsindən digərinə verilməsi, hansısa vergi növünün büdcə həlqəsinin gəlir mənbəyinə çevrilməsi nəzərdə tutulur. Beynəlxalq təcrübəyə nəzər yetirsək görərik ki, bir çox ölkələrdə o cümlədən AFR-da bu təcrübə tətbiq olunur. Dövlət büdcə sisteminin müvafiq həlqələri arasında bölüşdürülən, birbaşa, əsas tarazlıq aləti şəklində qəbul edilən tədiyyə növü qismində əsasən fiziki şəxslərin gəlir vergisi çıxış edir. Beynəlxalq təcrübədə müxtəlif ölkələrdə və müxtəlif dövrdə yerli verginin strukturunda gəlir vergisinin payı İsveçdə 99,6%, Danimarkada 93%, Finlandiyada 87%, Norveçdə 82%, İsveçrədə 77%, İslandiyada isə 73.4%-dir.

Dövlət gəlirlərinin istiqamətləndirilməsi, təsnifatı iqtisadi mahiyyət və hüquqi aspektlərinə əsasən gəlirlərin qruplaşdırılmasıdır. Büdcə gəlirlərində növbəti büdcə ilinə büdcə haqqında müvafiq qanunla müəyyən edilmiş dərəcədə ayrı-ayrı sahələrdə məqsədli şəkildə büdcə fondlarının gəlirləri nəzərdə tutulur. Bununla yanaşı məqsədli fondların vəsaitlərinin qalığı büdcə gəlirlərinə daxil edilir. Dövlətin maliyyə ehtiyyatlarının təxminən 2/3-ü dövlət gəlirləri təşkil edir.

Dövlət büdcəsinin gəlirlərinin düzgün şəkildə istiqamətləndirilməsində başlıca məqsəd büdcələrin tarazlaşdırılmasıdır. Büdcələrin tərtibi, icrası, təsdiqində əsas məqsəd dövlət gəlirləri və xərclərinin tarazlaşdırılmasıdır. Bəzi hallarda bu məqsədə nail olmaq mümkün olmur. Dövlət büdcəsinin gəlirləri ilə xərclərinin arsında tarazlıq pozulduqda büdcə defisiti (kəsri) və büdcə profisiti yaranır. Dövlət büdcəsi tarazlaşdırılmış və tarazlaşdırılmamış ola bilər. Büdcənin gəlirlərinin xərclərinə

bərabər olduğu hal büdcənin tarazlaşdırılmış vəziyyətidir. Əgər büdcə tarazlıq vəziyyətində deyildirsə 2 hal mümkün ola bilər.

1) birinci halda büdcə gəlirləri xərclərindən artıqdır ki, bu hall büdcə profisiti adlanır.
2) Ikinci halda isə büdcə xərcləri gəlirlərindən artıqdır ki, bu hall isə defisit adlanır.

Dövlət büdcəsinin gəlir və xərcləri arasında tarazlığın olması məqsədi ilə büdcə profisiti və ya kəsri idarəetmə obyekti olur. Kəsrin idarəedilməsi dedikdə kəsrin mümkün həddinin, maliyyələşdirilməsinin ən optimal mənbəyinin müəyyən edilməsi başa düşülür. Büdcə xərclərinin gəlirləri hesabına tam ödənilməsi büdcənn icrası kimi nəzərdə tutulur. Müvafiq büdcə qanunvericiliyə əsasən büdcələr əvvəlcə profisitsiz tərtib və təsdiq edilməlidir. Büdcənin tərtibi və təsdiqi prosesində dövlət gəlirləri xərclərdən artıq olarsa, büdcə təsdiq olunanadək profisitin müvafiq ardıcıllıqla ixtisar edilməsi həyata keçirilməlidir.

1) dövlət ehtiyyatlarının, dövlət və bələdiyyə mülkiyyətinin satışından əldə olunan gəlirlərin cəlb edilməsi ixtisar edilməli;
2) dövlətə məxsus ehtiyyatların satışından əldə olunan gəlirlərin cəlb edilməsi azaldılmalı;
3) dövlət büdcə vəsaitlərinin borclarının əlavə ödənilməsinə yenidən baxılmalı;
4) dövlət büdcəsinin xərclərini, gəlirlərin müəyyən hissəsinin digər səviyyəli büdcələrə verilməsi hesabına artırmalı

Bəzi hallarda müəyən səbəblərə görə bu tədbirləri həyata keçirmək məqsədəuyğun olmur. Bu hallarda vergi qanunvericiliyində əlavələr və dəyişiklik etməklə vergi gəlirlərini azaltmaq lazımdır. Büdcə gəlirlərini təhlil etmək üçün son illərin göstəricilərinə nəzər salsaq təhlil üçün  daha dəqiq məlumatlar əldə edə bilərik. 2015-2020-ci illər üzrə büdcə gəlirlərinə aşağıdakı cədvəl vasitəsilə nəzər salaq.

**Cədvəl 1: 2015-2020-ci illər üzrə büdcə gəlirləri**

| | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|
| Gəlirlər-cəmi | **17498.0** | **17505.7** | **16516.7** | **22508.9** | **24398.5** | **24134.5** |
| Fiziki şəxslərin gəlir vergisi | 982.5 | 1145.7 | 1040.3 | 995.9 | 952.1 | 1175.0 |
| Hüquqi şəxslərin mənfəət vergisi | 2211.1 | 1983.2 | 2285.9 | 2499.7 | 2546.0 | 2656.5 |
| Torpaq vergisi | 48.7 | 50.3 | 50.4 | 50.6 | 50.0 | 45.0 |
| Əmlak vergisi | 148.2 | 174.7 | 178.6 | 182.2 | 212.6 | 211.0 |
| ƏDV | 3454.7 | 3623.5 | 3668.6 | 4287.6 | 5185.1 | 4735.4 |
| Aksiz vergisi | 647.8 | 625.1 | 612.6 | 728.6 | 854.7 | 10490.0 |
| Mədən vergisi | 116.1 | 110.3 | 111.1 | 137.4 | 133.8 | 134.5 |
| Xarici iqtisadi fəaliyyətlə bağlı vergilər | 934.5 | 861.2 | 903.0 | 1143.7 | 1343.2 | 2381.6 |
| Digər vergilər | 247.7 | 457.0 | 505.7 | 561.6 | 477.5 | 685.9 |
| Sair daxilolmalar | 8706.7 | 8474.7 | 7160.5 | 11921.6 | 12643.4 | 5683.9 |

**Mənbə:** https://www.stat.gov.az/source/finance/ məlumatları əsasında müəllif tərəfindən tərtib olunub.

Cədvəlin təhlili göstərir ki, 2015-2020-ci illər ərzində dövlət büdcəsinin gəlirlərində ən böyük xüsusi çəki 2020-ci il büdcə gəlirlərinin payına düşür. 2020-ci il büdcə gəlirləri 24314.5 mln manat olmaqla 2015-2020-ci illər ərzindəki cəmi gəlirlərin ən yüksək həddini təşkil edir. 2020-ci il üçün dövlət gəlirləri təhlil olunduğu zaman neftdən əldə olunan gəlirlər də xüsusi maraq kəsb edir. 2019-cu ildə proqnozlaşdırılan 2020-ci il icmal büdcə gəlirləri 27605.3mln manat olacağı proqnozlaşdırılmışdı.

Cədvəl1 dən aydın olduğu kimi Azərbaycan Respublikasının Dövlət büdcəsinin gəlirləri 2015-2020 ci illər üzrə dalğavari hərəkət etmiş, 2015-2020-ci illər ərzində artıb azalmışdır. Büdcə gəlirlərininin 2015-2020 ci illər üzrə ayrı-ayrı daxilolmaların əks olunduğu cədvəl 1-in əsasında tərtib olunmuş qrafikdə ümumi illər üzrə dalğalanmalar qeyd olunmuşdur. Qeyd olunanları aşağıdakı qrafikdə görə bilərik. Büdcə gəlirlərindəki dalğalanmalarının səbəbləri çoxdur. Buraya dövlət gəlirlərinin ayrı-ayrı gəlir mənbələrinin illər üzrə müxtəlif göstəriciləri təsir edir. Büdcə gəlirlərinin tərkibinə daxil olan gəlirlərdəki artma və azalmalar müvafiq olaraq ümumi büdcə ilinə də təsir edir.

**Qrafik 1: 2015-2020- ci illər üzrə büdcə gəlirlərinin dalğavari hərəkəti**




**Mənbə:** http://e-qanun.az/framework/43943 məlumatları əsasında müəllif tərəfindən tərtib edilib.

Dövlət büdcəsinin gəlirlərinin bu dinamikası büdcənin idarə edilməsi ilə bağlıdır. Yuxarıda gördüyümüz kimi 2018-ci ildə dövlət gəlirlərinin məbləği (22508.9 mln manat), 2017- ci ilə ( 16516.7 mln manat) nisbətən artmışdır. Bu, öz təsirini büdcə gəlirlərinə nəzarəti gücləndirməklə növbəti illərdə dövlət gəlirlərinin artmasına səbəb olmuşdur. 2017-ci ildə ümumi dövlət gəlirləri 16516.7 mln manat, 2018-ci ildə isə 22508.9 mln manat olmuşdur. Bu artım 5992.2 mln manat yəni, 36.27% təşkil edir.

**Şəkil 1: 2015-2020-ci illərüzrə büdcə gəlirlərinin artım sürəti**



**Mənbə**: https://www.stat.gov.az/source/finance/ məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Bildiyimiz kimi, dövlət gəlirlərinin mühüm hissəsini dövlət neft fondundan daxilolmalar təşkil edir. Dövlət Neft Fondunda daxilolmalar büdcə gəlirlərinin ən mühüm hissəsini təşkil edir. Lakin zamanla ölkəmizdə büdcənin neft gəlirlərindən asılılığınının minimuma endirilməsinə dair tədbirlər görülmüşdür. Bu tədbirlərin görülməsində əsas məqsəd ölkədə iqtisadiyyatın inkişafının stimullaşdırılmasıdır. Aşağıdakı cədvəldə Dövlət Neft Fondunun gəlirləri əks olunmuşdur. Belə ki, bu göstəricilər ilbəil dəyişmişdir. Bizə ən yaxın olan 2020-ci ilin maliyyə göstəriciləri əsasında cədvəli təhlil edək.

**Cədvəl 2: Dövlət Neft Fondunun 2020-ci il üzrə gəlirləri**

| Sıra No-si | Gəlir mənbələri | Gəlirlərin məbləği (min manat) |
|---|---|---|
| 2.1 | Azərbaycan Respublikasının payına düşən karbohidrogenlərin satışından əldə edilən xalis gəlirlər ( karbohidrogenlərin nəqli məsrəfləri, bank,gömrük rəsmiləşdirilməsi, müstəqil nəzarət, marketinq və sığorta xərcləri çıxılmaq şərtilə, habelə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin sərmayəçiləri, payçısı və ya tərəfdaşı olduğu layihələrdə onun sərmayəsində və ya iştirak payına düşən gəlirlər istisna olmaqla) | 10 563 404.5 |
| 2.2 | Karbohidrogen ehtiyatlarının işlənməsi ilə əlaqədar sərmayeçilərin müqavilə sahəsindən istifadə üçün akrhesabı ödənişləri | 4 692.0 |
| 2.3 | Neftin və qazın Azərbaycan Respublikasının ərazisi ilə ötürülməsindən əldə edilən gəlirlər | 19 380.0 |
| 2.4 | Dövlət Neft Fondunun valyuta aktivlərinin yerləşdirilməsindən və iadrə olunmasından əldə edilən gəlirlər | 1 031 271.7 |
| 2.5 | Neft-qaz sazişlərinin imzalanması və ya icrası ilə bağlı sərmayəçilərin ödədikləri bonuslar | 765 340. |
| | Cəmi | 12 384 088.2 |

**Mənbə: https://oilfund.az/report-and-statistics/budget-information/41** alınmış informasiyalar üzrə müəllifin hesablamaları.

Maliyyə hesabatlarının hazırlanmasında geniş istifadə olunan şaquli təhlil metodu, müxtəlif ölçülü müəssisə və təşkilatlar arasında genişmiqyaslı müqayisə işlərini aparmaq üçün ümumi əsas təşkil edir. Şaquli təhlil metodu ilə müəssisə və

təşkilatların gəlirləri , xərcləri ümumi hesabatları ilə müqayisə edilir. Cədvəldəki müxtəlif illərdəki dövlət daxilolmalarının, dövlət gəlirlərinin müqayisəsi şaquli analiz  metodu ilə birbaşa təhlildir.

2021-ci il üzrə dövlət gəlirlərinin, dövlət büdcəsinin göstəricilərinə nəzər yetirək.2021-ci ildə pandemiya səbəbindən ticarət dövriyyəsinin azalması, iqtisadiyyatın zəifləməsi, məcmu tələbin azalması Respublikada ölkə iqtisadiyyatına kəskin şəkildə mənfi təsir göstərir. Dünya ölkələrində olduğu kimi pandemiyaya görə nəqliyyat, turizm, xidmət sferası kimi strukturlarda geriləmə müşahidə olunur. 2021-ci ildə pandemiyadan zərər çəkən sahibkarlara dəstək məqsədi ilə vergi stimullaşdırma tədbirlərinin həyhata keçirilməsi nəzərdə tutulmuşdur. Bu tədbirlərə nəzər yetirək.Əmlak və torpaq vergisindən müddətli azad olmalar, mikro sahibkarlıq subyektlərinə müddətli verig güzəştinin verilməsi,sosial sığorta yükünün azaldılması, sadələşdirilmiş vergi, mənfəət(gəlir) vergisi üzrə müddətli güzəştlər, zəruri ərzaq və tibbi tələbatları üçün əhalinin ehtiyaclarının bəzi növlərinin idxalının ƏDV-dən azad edilməsi və s. tədbirlər buna aiddir.

2021-ci il və ortamüddətli dövrdə dövlət gəlirlərinin, büdcə gəlirlərinin formalaşmasının başlıca hərəkətverici qüvvəsi, iqtisadi, sosial, dəstək tədbirlərinin davam etdirilməsi, kölgə iqtisadiyyatının azaldılması, ölkədə həyata keçirilən soail iqtisadi islahatlar, qeyri-rəsmi məşğulluq səviyyəsinn azaldılması, ölkəyə idxal olunan mallara nəzarətin gücləndirilməsi, şəffaflığın artırılması və bu kimi amillər qeyri-neft sektoruna müsbət təsir göstərir.

Ölkənin iqtisadi inkişafında dayanıqlılığa görə qyeri-neft ixracının coğrafiyasının nomenklaturasının genişlənməsi, iqtisadiyyatın diversifikasiyası, büdcənin qyeri-neft gəlirlərinin artırılması, gəlir siyasətinin ortamüddətli dövrdə əsas iqtiqamətlərindən biri olacaqdır (Məmmədova E.İ., Novruzov N.A., 2018).

Gəlir siyasətinin mühüm istiqamətlərindən biri elektron ticarətdə qanunvericiliyin təkmilləşdirilməsi, nağdsız hesablaşmadan istifadənin artırılması, rəqəmsal ödənişlərin institusional mühitin yaxşılaşdırılması və s. olacaqdır.

Kölgə iqtisadiyyatının azaldılması, eyni zamanda təsərrüfat subyektlərinin bütün fəaliyyətində şəffaflıq, hesabatlılıq tələblərinin gücləndirilməsi sahəsində tədbirlər davam etdiriləcək, vergi inzibatçılığı təkmilləşdiriləcək, vergitutma bazası genişləndiriləcəkdir.

Yük və sərnişindaşımada nəqliyyat vasitələrinə tətbiq edilən ödənişlərin tamamilə optimallaşdırılması gəlir siyasətinin başlıca istiqamətlərindən biridir.

Dövlət əmlakının özəlləşməsində sərmayəçilərə əlverişli şəraitin yaradılmasına və stimullaşdırıcı tədbirlərin görülməsinə daha əlverişli şəraitin yaradılmasına ortamüddətli iqtisadi dördə xüsusi önəm veriləcəkdir.

2021-ci ilin I rübündə Respublikada dövlət büdcəsinin icrasına (operativ) dair məlumatlara nəzər salaq. 2021-ci ilin ilk rübündə 5736.4 mln manat dövlət büdcəsinin mədaxili, xərcləri isə 5523.7 mln manat olmuş, nəticədə 212.7 mln manat dövlət büdcəsinin artıqlığı yaranmışdır. 2021-ci ilin birinci rübünə dair gəlirlərə nəzər yetirək. Qeyd etdiyimiz kimi 2021-ci ilin ilk rübündə dövlət büdcəsinin mədaxili 5736.4 mln manat olmuşdur ki, bu da rüblük proqnozdan 23.5 mln manat, yəni 0.4 faiz çox olmuşdur.

Dövlət büdcəsinin mədaxilinin 20853.7 mln manatı Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən daxil olmuşdur. Qeyd olunmuş vəsait isə proqnoza nisbətən 21.1 faiz, yəni 363.8 mln manat çox olmuşdur. 2020-ci ilin birinci rübü ilə müqayisədə isə 45.8 mln manat, yəni 2.2 faiz çoxdur. Qeyd olunmuş vəsaitin 1507.0 mln manat və yaxud 72.2 faizi qeyri-neft sektorundan daxilolmaların payına düşür. 2020-ci ilin birinci rübünün göstəriciləri əsasında təhlil etsək görərik ki, bu göstərici 110.6 mln manat və yaxud 7.9 faiz çoxdur.

5736.4 mln manat vəsaitin 943.6 mln manatı isə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi vasitəsilə daxil olmuşdur. Gömrük Komitəsinin xətti ilə daxil olunan vəsait isə proqnoza nisbətən 20.2 faiz , yəni 158.6 mln manat çoxdur.

115.0 mln manat isə Dövlət büdcəsindən maliyyələşən təşkilatların ödənişli xidmətlərindən daxil olunan vəsaitdir. Bu vəsait də 2020-ci ilin birinci dövrü ilə müqayisədə 5.5 mln manat və yaxud 5.0 faiz çoxdur.

Dövlət büdcəsinə sair daxilolmalar isə 78.4 mln manat olmuşdur ki, proqnoza nisbətən 48.4 mln manat, yəni 2.6 dəfə çoxdur. 2020-ci ilin eyni dövrü ilə müqayisə etdikdə isə 39.0 mln manar, 2.0 dəfə çxo olduğunu görərik.

## 2.3. Dövlət büdcəsinin gəlirlərinin hazırlanmasında xəzinədarlığın rolunun qiymətləndirilməsi

Azərbaycan Respublikasında xəzinədarlıq vasitəsilə büdcələrin icra edilməsi müəyyənləşdirilmişdir. Xəzinənin vahidliyi prinsipinə əsasən büdcənin icrası prosesi həyata keçirilir. Büdcə sisteminin bütün səviyyələri büdcələri arasında Azərbaycan Respublikasında vahid xəziə prinsipi əsasında icra edilir.

Beynəlxalq təcrübəyə nəzər yetirsək görərik ki, bütün ölkələrdə xəzinədarlıq maliyyənin mərkəzləşdirilmiş dövlət mənbələrini, maliyyə resurslarını özündə əks etdirir (Ataşov B., Novruzov N., İbrahimov E., 2014). Tresasury system- Xəzinədarlı sistemi büdcənin icra edilməsi, maliyyə planlaşdırılması, nağd dövriyyənin idarəolunması, maliyyə uçotu, kassa əməliyyatları, daxili və xarici borcların, daxili auditin idarə edən təşkilati qurumların məcmusudur. Xəzinədarlıq mürəkkəb informasiya axınlarını idarə edir. Bu sistemin yaradılmasında başlıca məqsəd büdcə təşkilatlarının əsas fərdi maliyyə hesablarına nəzarət etməkdir. Vəsaitlər Xəzinədarlıq və Maliyyə Nazirliyi tərəfindən müəyyənləşdirilmiş prosedurlara uyğun büdcədən silinir. Verilmiş qərar Maliyyə Nazirliyinin nəznində Dövlət Xəzinədarlığının yaradılması idi. Maliyyə Nazirliyinin tabeliyində olan Dövlət Xəzinədarlığı Agentliyi maliyyə əməliyyatlarının uçotunu aparan, dövlət xərcləri üzrə dövlətin adından öhdəlikləri qəbul edən, dövlətə məxsus olan maliyyə vəsaitlərinin daxil olması, bu vəsaitlərin məqsədyönlü xərclənməsində cari nəzarəti həyata keçirir.

Xəzinədarlıq sisteminin yaradılması bu səbəblərdən zəruri olmuşdur.

- büdcənin və vergilərin daha dolğun şəkildə informasiya bazasında proqnozlaşdırılması. Bu proqnozlar əsasında gəlirlərin mədaxilindəki dəyişikliklərə operativ reaksiya mümkündür.
- maliyyə əməliyyatlarının avtomatlaşdırılmış şəkildə aparılması vasitəsilə maliiyə-büdcə uçotu. Büdcə mədaxillərindəki dəyişikliklər dövlət xərclərini nəzarətinə imkan verən birmənalı və operativ informasiyaların əldə edilməsinə yardımçı olar.
- maliyyə proqnozlarından istifadə ilə həyata keçirilən planlaşdırma. Büdcə xərclərinin hüdudlarının doğrulaşdırılması əsasında nağd şəkildə vəsaitin gələcək hərəkətini müəyyən etmək olar.

Dövlət büdcəsinin gəlirləri ilə yanaşı xərclərinin idarəsində də xəzinədarlığın fəaliyyətinin mühüm rolu vardır (Ataşov B., Novruzov N., İbrahimov E., 2014). Maliyyə ehtiyyatlarının bahid mərkəzdən idarəsinin təşkili, dövlət xərclərinin, büdcədənkənar fondlarınmaliyyə ehtiyyatlarını dövlət büdcəsi vasitəsilə, dövlət daxili və xarici əməliyyatların, investisiyaların xəzinə nəzarətinə cəlb edilməsi, öhdəlikləri tətbiq edərək büdcə təşkilatlarının yeni borclanmasının qarşısının alınmasına, xərclərin icrasının maliyyə planlaşdırılmasının həyata keçirilməsinə nail olmaq, dövlətin daxili və xarici ivestisiyalarının dövlət xəzinə nəzarətinə cəlb edilməsinə başlanmasına, öhdəliklərə aid sistemi tətbiq edərək dövlət büdcə təşkilatları tərəfindən borclanmasının qarşısının alınmasına nail olunmuşdur. Dövlətə məxsus maliyyə ehtiyyatlarının mərkəzən idarəsini təmin etmək, maliyyə vəsaitlərinin daxili və xərci üçün daha çevik mexanizmi yaratmaq zəmanətlərin, dövlət borclarının, alınmış kreditlərin uçotu yaxşılaşdırmaq, Respublikada qiymətli kağızların formalaşmasını tamamilə sürətləndirmək məqsədilə şəhər və rayonlarda ərazi orqanları yaradılmışdır.

Büdcə vəsaitlərinin xərclənməsi mərkəzləşdirilmiş şəkildə Baş Dövlət Xəzinədarlığı tərəfindən qanuni həyata keçirilir. Dövlət büdcəsinin son illərdə idarəsi Dövlət Xəzinədarlıq Agentliyi tərəfindən tam elektron qaydada həyata

keçirilir. Elektron həyata keçirilmə statistik göstəricilərə tam vaxtında nəzarətin operativliyi təmin edir. Dövlət büdcəsinin icrasında öhdəlik və vəsaitlərə nəzarətə Xəzinədarlıq məhduliyyət daşıyır.

Xəzinədarlığın büdcə gəlirlərinin, büdcə xərclərinin idarəsindəki funksiyaları aşağıdakılardır.

- müəyyənləşdirilmiş qaydada dotasiyaların verilməsini təmin etmək;
- büdcə və büdcədənkənar gəlirlərin tədiyyə növləri kassa icrasının, büdcə xərclərinin isə büdcə təşkilatları üzrə faktiki və kassa icrasının uçotunu aparır.
- büdcə və büdcədənkənar gəlir və xərclərin icra edilməsinə aid hesabat məlumatlarının müvafiq büdcə təşkilatlarıyla dövr üzləşdirilməsini həyata keçirir.
- dövlət büdcəsindən ayrılan maliyyə vəsaitlərindən təyinatı üzrə istifadə olunmasına;
- Baş Dövlət Xəzinədarlığıyla yerli xəzinədarlıq orqanlarının arasında hərəkətdə olan maliyyə resurslarının, pul vəsaitlərinin dövri üzləşdirilməsi həyata keçirir;
- Baş Dövlət Xəzinədarlığının hesablarına dair əməliyyatları həyata keçirir, onların uçotunu təşkil edir;

Xəzinədarlıq Agentliyi büdcənin kassa icrasını reallaşdıran və maliyyə əməliyyatlarının uçotunu aparan, dövlət xərcləri üzrə dövlətin büdcə təşkilatları qarşısında müəyyənləşdirilmiş öhdəlikləri qəbul edən, dövlətə məxsus olan maliyyə vəsaitlərinin daxili və məqsədyönlü xərclənməsində cari nəzarəti həyata keçirir.

Dövlət Xəzinədarlığı Agentliyinin fəaliyyəti aşağıdakı vəzifələri həyata keçirir.

- büdcəyə daxilolmaların hansı vəziyyətdə olmasından asılı olaraq və bücə kəsri nəzərə alınmaqla təstiqlənmiş dövlət büdcəsində xərcləri maliyyələşdirmək;

- büdcəyə bütün daxilolmalar, büdcədənkənar övlət fondları gəlirləri, büdcədənkənar haqlar, əməliyyat xərcləri, məqsədli büdcə fondları, büdcə kəsrinin bağlanmasına görə dövlət təminatı ilə alınan kreditlərə dair maliyyə əməliyyatlarını və sair dövlət maliyyə əməliyyatlarını müəyyən edilmiş qaydalara uyğun həyata keçirmək;
- dövlət büdcəsinin maliyyə vəsaitinin idarəsinin, o cümlədən mərkəzləşdirilmiş xərclərə dair nəzərdə tutulmuş maliyyə resurslarından istifadənin səmərəliliyinin təmin edilməsi məqsədilə maliyyə planlaşdırılmasını tam şəkildə həyata keçirmək;
- dövlət büdcəsində büdcə kəsrinin örtülməsinə görə nəzərdə tutulmuş maliyyə mənbələrindən istifadəni təmin etmək;
- ehtiyyat fondlarından vəsaitin Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi qaydada yönəldilməsini təmin etmək;
- dövlət büdcəsinin icrasına aid hesabatın layihəsini, icmal hesabatını hazırlamaq;
- qanunvericiliyə uyğun olaraq məxfilik rejiminin və dövlət sirrinin qorunması üçün zəruri tədbirlər, faəliyyət istiqamətlərinə uyğun təhlükəsizlik tədbirləri görmək;
- xəzinə işlərinin normativ sənədlərə uyğun təşkilinin və aprılmasının icra vəziyyətini yoxlamaq;
- beynəlxalq təcrübə nəzərə alınmaqla, xəzinədarlıq agentliyinin fəaliyyətində elmi-texniki nailiyyətlətlər tətbiqini təmin etmək;
- büdcə təşkilatlarının aldığı mal, xidmətləri xəzinə hesab kitablarında uçota almaq.

Dövlət Xəzinədarlığı Agentliyi vəzifələrini yerinə yetirmək üçün aşağıda qeyd olunmuş hüquqlara malikdir.

- qanunvericiliklə müəyyən edilmiş qaydada hüquq mühafizə orqanlarının müraciətinə dair idarə, təşkilat və müəssisələrdə aparılan yoxlamalarda və təftişdə habelə bu təşkilatların maliyyə təsərrüfatının təhlilində iştirak;
- büdcənin icrası ilə əlaqədar yerli və mərkəzləşdirilmiş xərclərdən maliyyələşən komitə, nazirlik, şirkət, idarə və baş idarələrdən hesabatların vaxtında təqdim edilməsini tələb etmək, eyni zamanda onları icmallaşdırmaq;
- büdcə təşkilatlarından, dövlət büdcəsindən maliyyə yardımları ilə təmin olunan igər təşkilatlardan həmin vəsaitlərdən istifadə, müəyyən olunmuş qaydada, rüblük, aylıq və ilin əvvəlindən artan yekula funksional, təşkilati və iqtisadi təsnifat üzrə hesabatlar almaq.

Büdcə siyasətinin tam təmin olunması məqsədilə hər büdcə ilində xərclər, gəlirlər, büdcə kəsri üzrə müvafiq tədbirlərin həyata keçirilməsinə dair proqnozları hazırlanır. Dövlət Xəzinədarlıq Agentliyi Respublika büdcəsi, yerli büdcənin, xüsusi vəsaitlərin icrasına aid aylıq hesabat hazırlanır (Ataşov B., Novruzov N., İbrahimov E., 2014). Qeyd olunmuş hesabat dövlət büdcəsindən maliyyələşməni, onun kəsrini özündə əks etdirir. Azərbaycan Respublikasında xəzinədarlığın qurulması nəticəsində bütün gəlirlərin və xərclərin kassa icrasının tamamilə dövlət xəzinədarlığı ilə həyata keçirilməsinə başlanması dövlət büdcəsinin icrası prosesinin başqa mərhələlərində də, daha doğrusu, büdcədən maliyyələşən kredit təşkilatlarında həm debitor, həm də kreditor borclarının yaradılması, faktiki xərclərin aparılması üzərində dövlət xəzinə nəzarətini təmin edən icra mexanizmlərini mümkün etmişdir. Qeyd olunmuş xəzinədarlıq sisteminin ilk mərhələsində uçot sistemini qurmağa görə başlıca olaraq bütün banklardan şəhər, rayon, qəsəbə büdcələrinin, yerli büdcə və respublika xüsusi vəsaitlərinin müvafiq bank hesablarının cari ayın əvvəlinə qalıqlarını özündə əks etdirən çıxarışını almaq lazımdır.

Respublika, şəhər, rayon, qəsəbə büdcə təşkilatlarının, yerli büdcə nümanyəndələrinin və yerli xüsusi maliyyə vəsaitlərinin bank çıxarışlarındakı

qalıqları baş kitabın balansında müvafiq göstəricilərin təsnifat qruplarına görə müvafiq balans qrafasında qeydiyyatda olur.

Beynəlxalq təcrübədə də müasir dövrdə respublikada formalaşan maliyyə sistemi hazırki vəziyyətdə Dövlət büdcəsinin idarə olunmasında Xəzinədarlıq Agentliyinin fəaliyyətinin səmərəliliyinin artırılmasının doğru və beynəlxalq standartlara uyğun şəkildə aparılmasına dair müvafiq tədbirlərin həyata keçirilməsini eyni zamanda praktiki olaraq alternativi olmayan qərarların qəbul edilməsi Maliyyə Nazirliyinin yeni planlar həyata keçirilməsini tələb edir. Müasir dövrdə bazar iqtisadiyyatının mövcud olduğu dövrdə bütün sivil düyna ölkələrində mövcud xəzinədarlıq sistemi fəaliyyət göstərir.

Dövlət Xəzinədarlığının yaradılmasında başlıca məqsəd maliyyə vəsaitlərinin optimal şəkildə idarəetməsinə şərait yaratmışdır. Xəzinədarlığa qeyd olunmuş müvafiq normativ hüquqi aktlarda müəyyən olunmuş geniş vəzifə və öhdəliklərin funksiyalarln tapşırılmasını tələb edir.

- qanunvericiliyə müvafiq olaraq, büdcə və büdcədənkənar qeyd olunmuş daxilomaların mədaxili, bölüşdürülməsi, paylanması əməliyyatlarının həyata keçirilməsi;
- dövlət büdcəsi vəsaitlərinin idarə edilməsi;
- büdcə daxilolmalarının fəaliyyətindən asılı olaraq, təsdiqlənmiş dövlət büdcəsindəki tədbirlərin maliyyələşməsinin həyata keçirilməsi;
- xəzinə hesabları üzrə maliyyə əməliyyatlarının həyata keçirilməsi, əməliyyatların uçotunun təşkil edilməsi;
- ehtiyyat fondundan eyni zamanda investisiya xərclərindən vəsaitlərin dövlətin müəyyən etdiyi təyinatlara görə yönəldilməsinin təmin edilməsi.

Baxmayaraq ki, Respublikamızda xəzinədarlıq sisteminə nisbətən gec yaradılmışdır, lakin ölkə rəhbərliyinin qayğısı iə sistemin formalaşdırılması üçün çox işlər görülmüş, qeyd olunmuş sistemin bütün elementləri qısa zamanda uğurla həyata keçirilmiş, sonda əldə olunmu nəticələr beynəlxalq maliyyə institutlarında

yüksək qiymətləndirilmişdir. Xəzinədarlıq sistemi yaradılandan sonra maliyyə-informasiya sisteminin yaradılması dövlət maliyyəsinin idarə edilməsi baxımından önəmlidir. Aərbaycan Respublikası Maliyyə Nazirliyi Dövlət Xəzinədarlıq Agentliyi vəzifələrini yerinə yetirməyə görə müəyyən olunmuş aşağıdakı hüquqlara malikdir.

- xərclərin, mərkəzləşdirilmiş xərclərin icrasında səlahiyyətləri çərçivəsində cari nəzarətin keçirilməsi, dövlət büdcəsindən xərclərin maliyyələşdirilməsinə görə müvafiq büdcə təşkilatlarından lazımi sənədləri almaq;
- müvafiq dövlət büdcəsinin fəaliyyəti ilə əlaqədar yerli və yaxud mərkəzləşdirilmiş xərclərdən maliyyələşən komitə, nazirlik, idarə, şirkət və baş idarələrdən maliyyə hesabatlarının vaxtında dəqiq təqdim edilməsini qanuni qaydada tələb etmək, bununla yanaşı hesabatları icmallaşdırmaq;
- büdcənin ayılmış maliyyə vəsaitini təyinatı üzrə xərcləmədikdə, bununla yanaşı maliyyə vəsaitinin xərclənməsinə aid müvafiq hesabatların təqdim olunmadığı halda müvafiq dövlət büdcə təşkilatının rəhbərliyini baş vermiş vəziyyətlə bağlı xəbərdar etməklə, təşkilatın maliyyələşdirilməsinin məhdudlaşdırılmasına görə Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə müəyyən təklifləri təqdim etmək;
- Dövlət büdcəsindən maliyyələşən təşkilatlara müvafiq bank hesabı açmaq, bu hesabdan istifadə üçün yazılı şəkildə icazə vermək, qanunvericiliyə uyğun olaraq əvvəllər vermiş olduğu icazəni geri çağırmaq;
- dövlət büdcəsindən və büdcə təşkilatlarından maliyyə yardımları alan başqa təçkilatlardan qeyd olunmuş maliyyə vəsaitlərindən istifadəyə görə müəyyənləşdirilmiş qaydada, rüblük, aylıq və ilin əvvəlindən artmaqda olan yekunla, iqtisdi, təşkilati və funksional təsnifatla hesabatlar almaq;
- dövlət ve yerli özünüidarəetmə orqanlarına fəaliyyət göstərfiyi sahə üzrə hüquqi və fiziki şəxslərə zəruri sənədlərlə bağlı sual vermək və onlardan bu sənədləri (məlumatları) almaq.

Proqram çərçivəsindəki tədbirlər zamanı Azərbaycan Respublikasının Maliyyə Nazirliyində müasir dövrdəki islahatlar, o cümlədən xəzinədarlığın informasiya idarəetmə sistemi olduqca yüksək qiymətləndirilib, həmçinin böyük marağa səbəb olub. FARABİ sistemi büdcə təşkilatları üçün mərkəzləşdirilmiş mühasibat proqramdır. Bu sistemdən istifadə edərək büdcə təşkilatları mühasibat sistemindən əlverişli şəkildə istifadə edə bilərlər. Büdcə təşkilatlarının mühasibat sistemində əlverişli bir çox sistemlər mövcuddur. Zamanla hər bir sistem araşdırılaraq qiymətləndirilmişdir. Qeyd olunmuş mühasibatlığa dair sistemlərin ən səmərəlisi istifadə olunmaqdadır. Büdcə gəlirlərinin hesablanması, təhlili zamanl daha dəqiq metodlardan istufadə etmək mütləq şərtdir.

# III FƏSİL. AZƏRBAYCANDA DÖVLƏT GƏLİRLƏRİNİN MALİYYƏ MENECMENTİNİN TƏKMİLLƏŞDİRİLMƏSİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

## 3.1. Dövlət gəlirlərinin maliyyə menecmentinin mövcud problemləri və onların aradan qaldırılması məsələləri

Dövlət gəlirlərinin düzgün və səmərəli şəkildə idarə edilməsini təhlil etmək üçün ilk növbədə dövlət büdcəsi anlayışını, yerinə yetirdiyi funksiyaları, büdcənin fəaliyyət prinsiplərini öyrənmək lazımdır. Dövlət gəlirlərini, büdcənin funksiyalarını, fəaliyyət prinsiplərini, təşkili formasını bildikdə, büdcə prosesinin təşkili və gəlirlərinin səmərəli idarə edilməsi haqqında informasiyaya sahib ola bilərik. Dövlətlərin yaranmasıyla bir dövrdə dövlət büdcəsinin yaranması ehtimal edilir. Bu ehtimalın yaranmasının başlıca səbəbi isə odur ki, dövlətin formalaşması üçün, dövlətin öz fəaliyyətini davam etdirməsi üçün başlıca olaraq büdcə, dövlət büdcəsi tələb olunur. Çünki büdcə olmasa dövlət heç bir funksiyasını yerinə yetirə bilməz. İndiki dövrümüzə qədər büdcədən dövlətlər öz funksiyalarını, öhdəliklərini səmərəli yerinə yetirmək üçün istifadə etmişlər. İqtisadi kateqoriya kimi büdcənin funksiyaları aşağıdakılardır.

- ÜDM-un yenidən bölgüsü;
- ölkənin sosial-iqtisadi siyasətinin yerinə yetirilməsinin maliyyə təminatı;
- iqtisadiyyatın tənzimlənməsi;
- pul vəsaiti fondlarının yaranması və nəzarət;

İlk qeyd etdiyimiz, ÜDM-un yenidən bölüşdürülməsi, yəni bölüşdürücü funksiya büdcənin əsas funksiyasıdır və dövlətin, bölgələrin özünüidarətmə orqanları tərəfindən pul vəsaitlərinin yaradılmasıdır. İnkişaf etmiş ölkələrdə ÜDM-un təqribən yarıdan çox hissəsi yenidən bölüşdürülür. ÜDM-in büdcə vasitəsilə bölüşdürülməsi eyni anda br- biri ilə sıx bağlı olan iki prosesi özündə birləşdirir. Bu proseslərə büdcə gəlirlərinin yaradılması və gəlirlərin istifadəsi aiddir. Dövlət gəlirlərinə respublika, muxtar respublika və resublikanın ayrı-ayrı

bölgələrinin özünüidarəetmə orqanları tərəfindən müvafiq qanunla müəyyən edilmiş tərzdə dövlət büdcəsinə, muxtar respublikanın büdcəsinə, bölgələrin büdcələrinə olan müvafiq ödənişlər, dövlət vergiləri, rüsumlar və digər daxilolmalar aiddir. Sadalanan daxilolmalar əsasında formalaşmış ÜDM daha sonra məcburi şəkildə dövlət və bələdiyyələrə bölüşdürülür. Bu prosesin nəticəsində əhali ilə dövlət və bələdiyyələrin arasında iqtisadi münasibətlər yaranır.

Respublikada dövlət gəlirlərinin idarə olunmasının əsasını dövlətin büdcə siyasəti ilə birbaşa əlaqədar olan konsepsiyalar təşkil edir (Məmmədova E.İ., Novruzov N.A., 2018). Konsepsiyanın başlıca mahiyyəti ondan ibarətdir ki, dövlət büdcəsi hər il tarazlaşdırılmalıdır. Milli iqtisadiyyatın son zamanlaradək sabit inkişafını təmin edən büdcə, dövlət maliyyə siyasətinin başlıca məqsədini ifadə edən və hər il tarazlaşdırılan dövlət büdcəsi hesab edilir. Dövlət gəlirlərinin idarə edilməsindəki mövcud problemləri dərindən nəzərdən keçirək. Dövlət büdcəsi dövlətin mövcud siyasətinin səmərəliliyini kəskin şəkildə ya tamamilə aradan qaldırır, ya da tamamilə azaldır. İqtisadiyyatda uzunmüddətli işsizlik hökm sürdükdə əhalinin gəlirləri gündən günə azalır. Əhalilin gəlirləri azaldığına görə vergilər hesabına dövlət büdcəsinə daxilolmalar da azalacaqdır. Büdcəni tarazlaşdırmaq məqsədi ilə dövlət, vergi dərəcələrini qaldırmalı, dövlət xərclərini azaltmalı və ya onları bir-birilə əlaqələndirməlidir. Bu addımlar isə ümumi tələbin daha da azalmasına səbəb olur. Dövlət gəlirlərinin idarə edilməsi maliyyə menecmentinin ən çətin və vacib hissəsidir. Dövlət gəlirlərinin idarə edilməsi büdcə gəlirlərinin mövcud problemlərini əhatə edir. Məlum olduğu kimi bu məsələ istər istəməz müxtəlif formada əsas maliyyə məsələlərinə nüfuz edir. Nəticədə dövlətin və müəssisələrin maliyyə sisteminin qarşılıqlı bağlılığı yaranır. Dövlət gəlirlərinin idarə edilməsi çoxcəhətli prosesdir. Buna görə də dövlət gəlirləri sferasına sistemli yanaşmaq tələb olunur. Dövlət gəlirlərinin idarə edilməsi məsələsi təşkilari formalardan səmərəli istifadəni tələb edir. Büdcə

gəlirlərinin formalaşmasında Azərbaycan dövləti ilk növbədə çalışır ki, büdcənin gəlir hissəsi yerli mənbələrdən artsın.

Dövlət gəlirlərinin mühüm hissəsini bildiyimiz kimi büdcə-vergi münasibətləri təşkil edir Respublikada büdcə-vergi siyasətinin əsas prioriteti neft sektoruna aid olmayan sahələrin inkişafı, ölkənin iqtisadi stabilliyinin təminatı, ölkə iqtisadiyyatının inkişafının stimullaşdırılmasıdır. Vergi sisteminin təkmilləşdirilməsi büdcənin formalaşması və dövlət gəlirlərinin idarə edilməsinin tənzimlənməsi deməkdir. Qeyri neft sektoruna dəstək və dövlət gəlirlərinin səmərəli idarə olunması məqsədilə aşağıda qeyd olunmuş tədbirlərin yerinə yetirilməsi məqsədəuyğun hesab olunur.

- kənd təsərrüfatında fəaliyyət göstərənlərə tətbiq edilən vergi güzəştlərinin müddətinin uzadılması;
- sahibkarlığın inkişafına dair vergi-gömrük siyasətinin tətbiq olunması və təkmilləşdirilməsi;
- vergi dərəcələrinin optimallaşdırılması;
- kənd təsərrüfatında fəaliyyət göstərən sahibkarlara göstərilən verginin təkmilləşdirilməsi;
- müvafiq vergi dərəcələrinin optimallaşdırılması.

Müasir dövrdə hər keçən gün insanların tələbatları artır. Əhalinin ictimai performansını normallaşdırmağa görə büdcə sistemində müəyyən dəyişikliklər edilməlidir. Daha dəqiq desək, dövlət gəlirləri üzərində toplanan ənənəvi büdcə sistemindən nəticə üzərində formalaşan büdcəyə keçid olmalıdır. Gəlirlərin artırılması ənənəvi büdcənin əsas xarakteridir. Maliyyələşdirmənin yaxşılaşdırılması dövlət gəlirlərinin artırılması hesabına həyata keçirilir. Qeyd olunan fikirlər ənənəvi büdcənin büdcənin başlıca xarakteridir. Nəticə indeksli büdcənin əsas xarakteri isə nəticəlilikdir. Yetəri qədər elastik olmadığından və iqtisadi hadisələrə reaksiya vermə qabiliyyətinin zəif olmasına görə ənənəvi büdcə müasir dövrümüzlə uyğunlaşa bilməz. Yuxarıdakı mənfi cəhətlər isə büdcə vəsaitlərinin, dövlət gəlirlərinin qeyri-effektiv və səmərəli bölüşdürülməməsi ilə

nəticələnir. Performans büdcəsi, nəticə yönümlü büdcənin isə ənənəvi büdcədən başlıca fərqi ondan ibarətdir ki, pulun gəliri və xərcinin səbəbləri sualına cavab verilir. Performans büdcədə açar söz kimi büdcənin formalaşmasında nəticə götürülür. Burada, performans büdcəsi formalaşarkən büdcənin fəaliyyəti və məqsədi istiqamətində bütün büdcələmə və planlama nəticə yönümlü olur.

Maliyyə Nazirliyində növbəti büdcə ilində dövlət büdcəsinin tərkibinə daxil olan gəlir və xərclərin layihələri hazırlanan zaman iqtisadi, funksional və təşkilati təsnifatların informasiya axınlarının avtomatlaşdırılmasında aşağıda qeyd olunan iqtisadi obyektləri əldə etmək mümkündür. Bunlar, cari ilin dövlət büdcəsinin gözlənilən icrasına aid informasiya, növbəti büdcə ili üzrə dövlət gəlirlərinin ötən ilin faktiki və cari ilin nəticələri, xərclərin iqtisadi, funksional və təşkilati təsnifatlara dair müqayisəsi, eyni zamanda başqa informasiyalar bura daxildir.

Büdcənin gəlirləri və xərclərinin proqnozlaşdırılmasında inflyasiyanın proqnozlaşdırılması da həyata keçirilməlidir. Ümumi büdcə defsiti, ilkin büdcə profisitinin təhlilinin əsasıdır. Yığım ilə investisiyanın fərqi dövlət büdcəsinin defisiti adlanır. Defisit daxili borclar və xarici borclar olmaqla 2 mənbədən ödənilir. Bu defisitin maliyyələşdirilməsində imkan olduqca məhduddur. Büdcə defisitini maliyyələşdirmək üçün hər bir ölkə ancaq iki mənbədən istifadə etmək məcburiyyətindədir. Qeyd olunmuş səbəblərlə əlaqədar olaraq defisitin ölçülməlidir. Dövlət büdcəsinin tərtibində xüsusi əhəmiyyətə malik olan büdcənin proqnozlaşdırılması və planlaşdırılmasında, büdcənin xarakteristikasının maliyyələşdirilməsində qeyd olunmalıdır. Aşağıdakı cədvəldə büdcə gəlirləri və xərclərinin təhlili göstərilmişdir. Bu təhlil ilə büdcə defisitini, kəsrini müəyyən etmək mümkündür. İllər üzrə büdcə gəlirləri və xərcləri arasındakı müəyyən fərqdən büdcə ilinin büdcə ləsiri və ya büdcə defisitiilə yekunlaşması haqda məlumatı cədvəl 3 dən əldə edə bilərik.

**Cədvəl 3: 2010-2019- cu illər üzrə Azərbaycan Respublikasının dövlət büdcəsinin göstəriciləri (milyon manat)**

| | Dövlət büdcəsinin gəlirləri | Dövlət büdcəsinin xərcləri | Büdcə kəsiri |
|---|---|---|---|
| 2010 | 11403,0 | 11765.9 | -362.9 |
| 2011 | 15700.7 | 15397.5 | 303.2 |
| 2012 | 17281.5 | 17416.5 | -135 |
| 2013 | 19496.3 | 19143.5 | 352.8 |
| 2014 | 18400.6 | 18709.0 | -308.4 |
| 2015 | 17497.0 | 17783.5 | -284.5 |
| 2016 | 17504.7 | 17751.3 | -243.6 |
| 2017 | 16516.7 | 17594.5 | -1077.8 |
| 2018 | 22507.9 | 22730.6 | -227.7 |
| 2019 | 24398.5 | 24425.9 | -27.4 |

**Mənbə:** **https://www.stat.gov.az/source/finance/** və https://data.worldbank.org/country/AZ məlumatları əsasında müəllif tərəfindən tərtib olunub

Dövlət yığımının həcmi haqqında daha düzgün təsəvvür verir. Cari büdcə defisiti eyni zamanda ölkənin ümumi yığımında hökumətin payını əks etdirir. İlkin büdcə kəsri büdcənin vəziyyətini faiz ödənişləri nəzərə alınmadan ifadə edir. İlkin büdcə kəsri cari büdcə siyasətinin milli iqtisadiyyatın inkişafına daha doğru təsirini ölçməyə imkan verir. Xalis faiz ödənişi isə məcmu faiz ödənişi ilə büdcəyə faiz daxilolmaları arasındakı fərqdir. Aşağıdakı düstura nəzər yetirək.

**XFÖ=MFÖ-BFD** (1)

Əməliyyat kəsrinin ənənəvi büdcə kəsrindən başlıca fərqi ondan ibarətdir ki, əməliyyat kəsri faiz ödənişinin inflyasiyasının yüksəlməsində meydana gələn hissə çıxılmaqla yaranır.

**ƏDK= İBK+MFÖ-(BFD+İF)** (2)

Ölkədə sabitliyi nəzərə alaraq növbəti illər ərzində iqtisadiyyatın, ayrı-ayrı regionlarda müxtəlif sahələrin inkişafının əsas şərtlərindən biri, orta illik inflyasiyanın, dövlət vergi dərəcələrinin optimal həddinin müəyyənləşdirilməsidir.

Dünya təsərrüfatına ölkə iqtisadiyyatının inteqrasiyasına görə Azərbaycanın gələcəkdə beynəlxalq təşkilatlarla əməkdaşlığının genişləndirilməsinə nəzərən qanunvericiliyin, Ümumdünya Ticarət Təşkilatının tələblərinə uyğunlaşdırılması sürətləndiriləcəkdir. İstehsal məhsullarının inteqrasiyası üçün zəmin yaradılması, daxili bazarın haqsız rəqabİstehsal olunmuş məhsulların ixracı üçün əlverişli zəmin yaradılması, daxili bazarın haqsız rəqabətdən qorunması üçün xarici iqtisadi siyasət vacibdir.

Qeyri-neft sektorunun dayanıqlı inkişafı, iqtisadiyyatın səmərəi tənzimlənməsi, ölkənin makroiqtisadi vəziyyətinin sabit saxlanması, iqtisadiyyatın dinamik inkişafının stimullaşdırılmasına nail olmaq büdcə-vergi siyasətinin əsas məqsədlərindən biridir. (Ataşov B., Novruzov N., İbrahimov E., 2014).

Vergi sisteminin təkmilləşdirilməsi ilə növbəti illərdə aşağıdakı tədbirlər nəzərdə tutulmuşdur.

- vergi dərəcələrinin optimallaşdırılması;
- sahibkarlara göstərilən vergi xidmətinin əhatəsinin genişləndirilməsinə görə kompüter terminallarının, özəl vergi məsləhəti xidmətinin yaradılması;
- sahibkarların təşviqinə yönəlmiş vergi-gömrük siyasətinin həyata keçirilməsi.

Qeyd olunmuş sahələrdəki islahatların davam etdirilməsi dövlət büdcəsinin, o cümlədən dövlət gəlirlərinin və xərclərinin daha da səmərəli istifadəsinə gətirib çıxaracaq. Dövlət gəlirlərinin və xərclərinin idarəetməsi zamanı bir çox problemlər yaşanır və bu problemlərin həlli yolu eyni zamanda araşdırılır. Respublikada dövlət büdcəsinin, dövlət gəlirlərinin və xərclərinin maliyyə menecmentinin istifadəsini aşağıdakılar şərtləndirir.

1. Indiki vəziyyətdə məhdud büdcə vəsaiti problemi yoxdur.
2. Dövlət büdcəsinin vəsaitinin maliyyə menecmentində son illərdə nəzərə çarpan islahatlar aparılmışdır. Prioritetlərin büdcə xərcləmələrində

müəyyənləşdirilməsi ümumən siyasi qərardır. Cənab İlham Əliyev bununla bağlı büdcə gəlirlərinin ölkənin inkişaf prioritetlərinə uyğun şəkildə xərclənməsi ilə əlaqədar tapşırıq vermişdir. Müəyyənləşdirilmiş prioritetlərin maliyyələşdirilməsi və verəcəyi səmərə iqtisadi məsələdir. Qeyd olunmuş sahədə ciddi addımlar atılmaqdadır.

3. Azərbaycanda yerli özünüidarətmənin təkmilləşdirilməsinə görə xüsusi dövlət proqramına ehtiyac var. Belə ki, mərkəzi və yerli büdcələr arasındakı uyğunsuzluq tamamilə aradan qaldırılmalıdır. Məsələn, öz büdcə imkanlarına görə ölkənin qabaqcıl bələdiyyələrindən biri Sumqayıt Şəhər Bələdiyyəsidir. Ümumi şəhər büdcəsində isə Sumqayıt şəhəri mərkəzi mərkəzi dövlət büdcəsindən alınan dotasiyalara nəzərən ölkədə birinci yerdərir.

Dövlət gəlirlərinin, büdcə gəlir və xərclərinin maliyyə menecmentinin mövcud problemlərinin aradan qaldırılmasının başlıca yolu dövlət müəssisələrinin korporativ maliyyə idarəetməsinin beynəlxalq maliyyə standartlarına keçidinin sürətlənməsi prosesidir. Dövlət müəssisələrinin Azərbycanda zəif inkişafı həm də korporativ idarəetmə və mühsibat uçotu üzrə beynəlxalq standart və prinsiplərin qəbulu ilə bağlıdır. Beynəlxalq təcrübədə OECD-nın müəyyənləşdirdiyi idarəetmə prinsiplərinə nəzər yetirək.

1. Effetktiv korporativ idarəetmə üçün əsaslar;
2. Payçıların əsas mülkiyyət funksiyalarına və hüquqlarına riayət etmək;
3. Korporativ idarəetmədə tərəflərin rolu;
4. Səhmdarlara bərabər hüquqlu münasibət;
5. Idarə heyətinin müəyyənləşdirilmiş səlahiyyətləri;
6. Şəffaflıq.

Dünya Bankının və Beynəlxalq Mühasiblər Federasiyasının beynəlxalq mühasibat uçotu standartlarına tədricən, eyni zamanda, ardıcıl olmalıdır. Bildiyimiz kimi dövlət gəlirlərinin mühüm hissəsindən birini vergilərdən daxilolmalar təşkil edir. Dövlət gəlirlərinin tərkibinə daxil olan torpaq vergisinin

maliyyə mövcud problemlərindən biri də bələdiyyələrin zəbt olunmuş və qeyri-qanuni istifadə olunan torpaqlardan haqq ala bilməməsidir. Torpaq vergisi çox kiçik məbləğ olduğu üçün isə bələdiyyənin artıq vəsait sərf edərək vətəndaşları məhkəməyə verməsi səmərəli deyil.

Dövlət gəlirlərinin maliyyə menecmentində vergilər ilə əlaqədar olan digər problem isə əmlak vergisidir. Əmlak vergisinin toplanması zamanı əsas problemlərdən biri də budur ki, mülkiyyətçilərdən haqq alınmalıdır ki,özəlləşdirilmiş mənzilləri var, lakin nəticədə vergisini ödəməkdən imtina edir. Vətəndaşların sənədləşdirləmələri mənzil istismar sahələrində aparılır, lakin bələdiyyə bu vergilərin çox çətin toplayır.

Dövlət gəlirlərinin maliyyə menecmentinin problemlərinin tamamilə aradan qaldırılması məqsədilə birinci regionların büdcənin formalaşmasın bu qədər aşağı olmasının səbəbləri öyrənilməlidir. Daha sonra isə Respublika üzrə ayrı-ayrı regionlar üzrə büdcə daxilolmalarının ÜDM-in müvafiq hissələrdəki çəkisi araşdırılmalıdır (Məmmədova E.İ., Novruzov N.A., 2018). Hər bir region üzrə vergi bazasının ümumi həcmi üzrə ÜDM-a nisbəti tədqiq edilməlidir.

Dövlət gəlirlərindən mikro səviyyəlir ehtiyyatlardan səmərəli istifadə edilməsi vacib problemdir. Bu problem həm dövlətin, həm də əhalinin əsas iqtisadi müdafiə mexanizmidir. Bu səbəblərə görə də gəlir mənbələrinin formalaşması, idarə olunması və gəlir növlərinin iqtisadi cəhətdən düzgün təsnifata ayrılması, eyni zamanda konkretləşdirilməsinin böyük əhəmiyyəti vardır. İqtisadi təsnifata ayırma makro və mikro səviyyəli baxımdan son dərəcə önəmlidir. Həm makro həm də mikro səviyyə baxımından araşdırmalar aparılmalıdır.

Dövlət gəlirlərinin mühüm hissəsini təşkil edən neft gəlirlərinin hesabına dövlət xərclərinin çox yüksək temo ilə artırılması iqtisadiyyata uzunmüddətli problemlərin həll edir.

2021-ci il üçün büdcə göstəricilərinə nəzər salaq. 2021-ci ildə 24 327.0 mln manat məbləğində dövlət büdcəsinin gəlirləri proqnozlaşdırılır. Gəlirlərin 13 950,

0 milyon manatı, yəni 57.3 faizi neft sektorunun, 10 377.0 milyon manatı, yəni 42.7 faizi isə qeyri-neft sektorunun payına düşür. Neft sektoru üzrə gəlirlərini 12 200milyon manat və ya 87.5 faizini Azərbaycan Respublikasının Dövlət Neft Fondundan transfert, 1750.0 milyon manat və ya 12.5 faizini vergi orqanlarının xətti ilə neft sektorundan daxilolmalar təşkil edir. İcmal və dövlət büdcəsinin gəlirləri hesablanarkə 2021-ci il üşün neftin bir barelinin qiyməti 35 ABŞ dollarına bərabər götürülmüşdür.

**Şəkil 2: 2021-ci il Dövlət büdcəsi daxilolmalarının sektorlar üzrə bölgüsü**




**Mənbə**: http://www.maliyye.gov.az/ 2021-ci il hesabatlarına əsasən müəllif tərəfindən hazırlanmışdır.

Şəkil2 də gördüyümüz kimi Dövlət büdcəsinin sektorlar üzrə bölgüsünə nəzər yetirsək görərik ki, qeyro-neft sektoru üzrə daxilolmalrın payı neft sektoru üzrə daxilolmalardan artıqdır. Bu isə müsbət nəticədir. Çünki dövlət gəlirləri neftdən əldə olunan gəlirlərdən asılı vəziyyətdə olmamalıdır. Dövlətin başlıca məqsədlərindən biri də qeyri-neft sektorundan əldə olunan gəlirlərin artırılması istiqamətində işlərdir. Buraya turizmin inkişafı və s prioritet sahələrin inkişafına dair dövlət proqramları daxildir.

## 3.2. Dövlət gəlirlərinin idarə edilməsində informasiya axınlarının avtomatlaşdırılması

XX əsrin 40-cı illərindən etibarən cəmiyyətin əsas inkişaf perspektivi hesab olunan Elektron hesablama maşınları, XX əsrin sonlarında informasiya və kommunikasiya texnologiyaları kimi təsdiq etmiş və insan cəmiyyətinin inkişafına təsir göstərən başlıca amillərdən biri olmuşdur. İnformasiya və kommunikasiya texnologiyalarının təsiri ilbəil genişlənərək dövlət institutları, strukturları, sosial, iqtisadi, səhiyyə, elm, təhsil sahələrini əhatə etmişdir. Müasir dövrümüzdə dünyada ölkələr İKT-nin üstünlüklərindən istifadə edir. İKT-nin üstünlükləri iqtisadiyyatdan, maliyyədən də yan keçməmişdir. Belə ki, maliyyə, iqtisadi göstəricilərin avtomatlaşdırılmış versiyada təqdim edilməsi, kağız üzərində göstəricilərin minumuma endirilməsinə səbəb olmuşdur. Buna görə də maliyyə göstəriciləri hal hazırda daha rahat formada daşınması, emal edilməsi, ötürülməsi baş tutur. İnformasiya axınlarının avtomatlaşdırılmasına görə bu göstəricilərin təhrif olunması halı minimum səviyyəyə endirilmişdir ki, buna görə də daha dəqiq göstəricilər əldə etmək mümkün olmuşdur.

Informasiya və kommunikasiya texnologiyalarının demək olar ki, bütün fəaliyyət sferalarında tətbiq olunması hər bir ölkənin həm intellektual, həm də elmi potensialının, ölkələrarası informasiya mübadiləsinin, dövlət idarəçiliyində demokratiyanın və şəffaflığın inkişafını şərtləndirən əsas göstəricilərdəndir.

Beynəlxalq təcrübə onu göstərir ki, İKT-dən geniş istifadə ölkənin inkişafına xidmət edir, habelə problemləri həll edir. Azərbaycan Respublikası üçün informasiya və kommunikasiya texnologiyalarının mühüm əhəmiyyəti vardır. Buna görə də Azərbaycan Respublikası prezidentinin sərəncamı ilə qanun təsdiq edilmişdir. Azərbaycanda son illərdə İKT-dən istifadə də mühüm nailiyyətlər olmuş və dövlət siyasətinin əsas prioritetlərinə çevrilmişdir. İnformasiya kommunikasiyası və texnologiyas dövlətin əsas maliyyə siyasəti olan büdcə prosesinin menecmentinin maliyyə sisteminin idarə edilməsində əsas çekiyə malik komponentdir. Dövlət və icmal büdcənin tərtibi, idarə olunması mərhələlərlə hazırlanarkən, maliyyənin, dövlət gəlirlərinin idarə olunması

məsələlərinin texniki tərəfi ümumi maliyyə sisteminin tərkib hissəsi kimi nəzərdən keçirilməlidir. Bu prisiplər keyfiyyət və zaman baxımından nəzarətdə saxlanılmalıdır. Dövlət gəlirlərinin, büdcənin idarə edilməsinin informasiya axının avtomatlaşdırılması məsələsinin həlli üçün Maliyyə Nazirliyində müəyyən addımlar atılmış, dövlət büdcəsinə uyğun informasiya sisteminin idarə edilməsində riyazi proqram təminatı yaradılmışdır. Buna görə də dövlət büdcəsi informasiya axınlarının tənzimlənmə öz opertariv həllini tapır. İnformasiya və kommunikasiya texnologiyalarının tətbiqinin üstünlüyü, maliyyə sistemi, iqtisadi sistem kəsilməz olsa da iqtisadi proqnozlaşdırmanın mahiyyəti, həm cari, həm də gələcək iqtisadi vəziyyətin müqayisə faktorlarının təhlili üçün əlverişli imkanlar yaradır, bu isə maliyyənin idarə olunmasında tənzimlənmə, operativ, nəzarət mərhələsində ola biləcək bütün böhranlı situasiyaların qarşısını almaqda kömək olur. İnformasiya texnologiyalarının tətbiqi Respublikada iqtisadi inkişafa müsbət təsir göstərir. Buna görə də sosial stabillik mümkün olur.

Maliyyə Nazirliyində gələcək ilin dövlət gəlirlərinin və xərclərinin layihələri hazırlanan zaman iqtisadi, funksional və təşkilati təsnifatların hər birinin paraqrafları səviyyəsində informasiyanın avtomatlaşdırılmasına görə cari ilin dövlət büdcəsinin icrasına dair informasiya, habelə gələcək büdcə ili üzrə dövlət gəlirlərinin ötən ilin faktki, cari ilin gözlənilən gəlirləri, həmçinin xərclərin iqtisadi, funksional və təşkilati təsnifatlara nəzərən müqayisəsi və başqa informasiyaları əldə etmək mümkündür.

Ölkə miqyaslı məsələlərin həlli dövlət və icmal büdcə layihələrinin hazırlanması kimi həll metodologiyasına İKT-nin tətbiqi maliyyə menecmentində proqnozlaşdırma və başqa ehtimalların həyata keçməsinin sınaq mərhələləri ilə yanaşı, əhalinin sosial müdafiə, dövlətin sosial siyasət sisteminin möhkəmlənməsində mühüm rol oynayır (Ələkbərov Ə.Ə.,2007).

Xəzinədarlıq, bildiyimiz kimi maliyyə sisteminin əsas sahəsidir. Və onun idarə edilməsini İKT-siz təsəvvür etmək mümkün deyildir. Xəzinədarlığın informasiya idarəçiliyi sitminin bugünkü dövrdə təminatı üzərində işlər daim təkmilləşdirilir.

Dünya bankı tərəfindən isə texniki təchizat reallaşdırılmalıdır. Dünya Bankı tərəfindən təklif olunan proqram təminatı, Alamniyanın “SAP” şirkətinin Rusiya Federasiyasındakı nümayəndəliyi tərəfindən icra ediləcəkdir. Xəzinədarlığın informasiya idarə edilməsi sisteminin lokal şəbəkəyə keçməsi indiki dövrdə vacib məsələlərdən hesab olunur. Bu da maliyyə sisteminin idarə edilməsində informasiyaya dair məhdudiyyətlərin aradan qaldırılılmasına əlverişli mühit yaradacaq. Ölkəyə maraq göstərən dünya maliyyə qurumları, xarici investorlar İKT-nin xidmətlərindən yararlanacaqlar. Bücdə vəsaitlərinin çevik idarə ediləsinə, informasiya axının avtomatlaşdırılması vasitəsilə nail olmaq mümkündür. Belə ki, Maliyyə Nazirliyinin mərkəzi aparatı uzun müddətdir ki, texnologiyalardan istifadə edir. İFT-nin tətbiqi sferasında yeniliklərdən biri isə odur ki, informasiyaların operativ ötürülməsi, vaxta qənaət, dəqiqlik, məlumatların sistemləşdirilməsi, kompleks informasiya bazasının yaradılması, rəsmi statistikanın təkmilləşdirilməsi və müəyyən informasiyaların kağızla daşınmasına tamamilə son qoyulmalıdır.

Qeyd etdiyimiz bütün amillər onu göstərir ki, dünya təcrübəsinə əsaslanan Milli Strategiyanın məqsədi ondan ibarətdir ki, İnformasiya və Kommunikasiya Texnologiyalarından daha geniş istifadə ilə ölkənin demokratik inkişafına kömək etmək, nəticədə ölkənin beynəlxalq aləmə inteqrasiyasına şərait yaratmaqdır (Ataşov B., Novruzov N., İbrahimov E., 2014). Milli Strategiyanın fəaliyyətinin həyata keçirilməsi nəticəsində maliyyənin, büdcə və dövlət gəlirlərinin, xərclərinin idarə olunmasında şəffaf, effektiv və nəzarət edilən iqtisadi mühit yaradılacaqdır. İnformasiya axınlarının avtomatlaşdırılmasının əsas üstünlüklərindən biri veridən yayınma hallarına qarşı görülən tədbirlərin müsbət istiqamətdə nəticələnməsi olmuşdur. Belə ki, vergi hesabatları internet vasitəsilə göndərilir demək olar ki, əlavə düzəlişlərə ehtiyac olmur və hər bir müəsssənin ödəyəcəyi vergi müəyyən olunur.

## 3.3. Azərbaycanda dövlət gəlirlərinin maliyyə menecmentinin səmərəliliyinin artırılması

Azərbaycanda dövlət gəlirlərinin idarə edilməsinin səmərəliliyinin artırılması üsulları müxtəlifdir. Dövlət gəlirlərinin maliyyə menecmentinin səmərəliliyinin artırılmasına bir çox amillər təsir edir. Belə ki, müxtəlif illərdə səmərəliliyinin artırılması yollarına diqqət yetirsək görərik ki, səmərəliliyin artırılması yolları fərqli olmuşdur. Buradan bu qənaətə gələ bilərik ki, dövlət gəlirlərinin maliyyə menecmentinin səmərəliliyinin artırılması yollarına təsir edən amillərin artırılması yollarından biri dövr faktorudur. Lakin bildiyimiz kimi 20020,2021-ci illərdə hökm sürən pandemiya səbəbindən büdcədən, dövlət gəlirlərindən istifadədə dəyişikliklər olmuşdur. Bu dəyişikliyin əsas səbəbi pandemiyanın iqtisadiyyata vurduğu başlıca zərbələrdir ki, buraya dövlət gəlirlərinin, büdcə gəlirlərinin azalması faktoru mühüm rol oynayır. İqtisadiyyatın, dövlət gəlirlərinin zəifləməsinə baxmayaraq 2021-ci ildə də dövlət gəlirlərinin maliyyə menecmentinin artırılmasında bir çox tədbirlər görülmüşdür. Bu tədbirlər həm ölkəmizdə həm də müxtəlif ölkələrdə baş vermişdir. 2021-ci ildə dövlət gəlirlərinin maliyyə menecmentinin səmərəliliyinin artırılmasında beynəlxalq təcrübəyə nəzər yetirək. Beynəlxalq maliyyə təşkilatçıları, iqtisadçı alimlər cari ildə hökm sürən pandemiya səbəbindən dünya ölkələri üçün fərqli iqtisadi göstəricilər proqnozlaşdırmışdır. Proqnozlaşdırılmış göstəricilər mənfi meylli olsa da 2021-ci ildə İEOÖ üzrə iqtisadi inkişafın sürətli olacağı nəzərdə tutulmuşdur. 2021-ci ildə 2020-ci ilə nisbətən iqtisadi inkişafın baş verməsinə bir sıra amillər təsir edir. Bu amillərə vaksinlər və s. kimi amillər daxildir. Dünya ölkələrinin, həmçinin Azərbaycanın başlıca hədəfi iqtisadi inkişaf, dövlət gəlirlərindən, dövlət gəlirlərinin maliyyə menecmentindən səmərəli istifadə və s.dir.

Beynəlxalq Valyuta Fondu tərəfindən hazırlanan yay buraxılışında COVİD-19 pandemiyasının 2021-ci ilin birinci yarısında gözlənildiyindən də çox mənfi təsirlərinin müşahidə olunduğu, bərpa prosesinin əvvəlki illərlə müqayisədə çox

mərhələdən ibarət olacağı qeyd edilmişdir. Mühüm iqtisadi parametrlərin bu əsasla 2020,2021-ci illər üzrə proqnozları azaldılmışdır. Zaman keçdikcə xəstəliyin müalicəsinin uğurla nəticələndiyi, iqtisadiyyatın tədricən bərpa olunması, peyvənd araşdırmalarının artdığı və qlobal karantin şərtlərinin yumşaldığı dövrdə ticarətin nisbətən inkişafı, 2020-ci il üzrə proqnoz ssenarilərinə yaxşılaşma istiqamətində düzəlişlər, iqtisadiyyatın daha zəif templə azalacağı proqnozlaşdırılmışdır. 2020,2021-ci illər pandemiyanın iqtisadi zərbə ilə nəticələndiyi illərdir. Dövlət gəlirlərinin maliyyə menecmentinin səmərəli idarə edilməsi istiqamətində gördüyü tədbirlər həmişə, bütün illərdə çoxşaxəli və olduqca mürəkkəb olmuşdur. Çünki dövlətin demək olar ki, sütunu dövlət gəlirlərinin səmərəli bölgüsü, dövlət gəlirlərinin maliyyə menecmentinin səmərəli idarə edilməsidir. Lakin 2020,2020-ci illərdə vəziyyətin tamamilə fərqli olmasına görə dövlət gəlirlərinin maliyyə menecmentinin səmərəli idarə edilməsi prosesində bir çox fərqli məqamlar üzə çıxmışdır. Şəkil3-də bir sıra inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin prornoz göstəriciləri əks olunmuşdur. Buraya inkişaf etmiş ölkələrə aid verilmiş nümunələrə ABŞ, Yaponiya, Birləşmiş Krallıq, Kanada vəs. kimi ölkələr, inkişaf etməkdə olan ölkələrə isə Çin , Rusiya, Türkiyə, Azərbaycan İran kimi ölkələrin 2020,2021-ci illər üzrə iqtisadi artıma dair proqnoz göstəriciləri qeyd olunmuşdur. Yuxarıda qeyd olunmu ölkələrin pandemiyadan əvvəl, daha dəqiq desək 2019-cu ilə dair iqtisadi artım göstəricilərinə nəzər salaq. Burada ən yüksək göstərici Çinin payına, ən aşağı göstərici isə İranın payına düşür. 2020-ci ilin iqtisadi artım östiricilərinə nəzər salaq. Gördüyümüz kmi demək olar ki həm inkişaf etmiş ölkələrdə, həm də inkişaf etməkə olan ölkələrdə iqtisdi artım kateqoriyasına daxil olan göstəricilər sıfırdan kiçik olmaqla mənfi qiymət almışdır. Bu ölkələrdə yalnız Çin müsbət qiymətlidir. 2020-ci ilin hər bir rübündə ölkələrin mənfi qiymət almağına başlıca səbəb pandemiyanın hökm sürməsidir. 2021-ci ildə isə 2020-ci ildən fərqli olaraq iqtisadi artım kateqoriyasından olan göstəricilər demək olar ki müsbət qiymətlər almışdır. Buna səbəb isə 2020-ci ildə pandemiyanın iqtisadiyyata göstərdiyi mənfi təsirin 2021-ci ildən nisbətən daha çox olmasıdır. 2020-ci il pandemiyanın ən

aktiv dövrü sayıldığından iqtisadiyyatda, turizmdə və başqalarına mənfi təsirləri olmuşdur. Bu təsirlərin qarşısının alınması üçün əsaslı tədbirlər görülmüşdür. Şəkil 3 də 2020,2021-ci illər üzrə regionların təqdim edilən göstəricilərinə nəzər salaq.

**Şəkil 3: 2020,2021-ci illər üzrə regionlar üzrə təqdim edilən göstəricilər**

| Ölkələr\Regionlar | Fakt | Proqnozlar | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | 2019 | 2020-ci il üçün cari ildə təqdim edilən göstəricilər | | | 2021-ci il üçün cari ildə təqdim edilən göstəricilər | | |
| | | Aprel buraxılışı | İyun buraxılışı | Oktyabr buraxılışı | Aprel buraxılışı | İyun buraxılışı | Oktyabr buraxılışı |
| **İqtisadi artım** | | | | | | | |
| Dünya | 2,8 | -3,0 | -4,9 | -4,4 | 5,8 | 5,4 | 5,2 |
| İEÖ | 1,7 | -6,1 | -8,0 | -5,8 | 4,5 | 4,8 | 3,9 |
| ABŞ | 2,2 | -5,9 | -8,0 | -4,3 | 4,7 | 4,5 | 3,1 |
| Avrozona | 1,3 | -7,5 | -10,2 | -8,3 | 4,7 | 6,0 | 5,2 |
| Yaponiya | 0,7 | -5,2 | -5,8 | -5,3 | 3,0 | 2,4 | 2,3 |
| Birləşmiş Krallıq | 1,5 | -6,5 | -10,2 | -9,8 | 4,0 | 6,3 | 5,9 |
| Kanada | 1,7 | -6,2 | -8,4 | -7,1 | 4,2 | 4,9 | 5,2 |
| İEOÖ | 3,7 | -1,0 | -3,0 | -3,3 | 6,6 | 5,9 | 6,0 |
| Çin | 6,1 | 1,2 | 1,0 | 1,9 | 9,2 | 8,2 | 8,2 |
| Rusiya | 1,3 | -5,5 | -6,6 | -4,1 | 3,5 | 4,1 | 2,8 |
| Türkiyə | 0,9 | -5,0 | - | -5,0 | 5,0 | - | 5,0 |
| İran | -6,5 | -6,0 | - | -5,0 | 3,1 | - | 3,2 |
| Azərbaycan | 2,2 | -2,2 | - | -4,0 | 0,7 | - | 2,0 |
| **Ticarətin artım tempi (mal və xidmətlər)** | | | | | | | |
| Dünya | 1,0 | -11,0 | -11,9 | -10,4 | 8,4 | 8,0 | 8,3 |
| **Xammal qiymətlərinin artım tempi** | | | | | | | |
| Neft | -10,2 | -42 | -41,1 | -32,1 | 6,3 | 3,8 | 12 |
| **İnflyasiya** | | | | | | | |
| İEÖ | 1,4 | 0,5 | 0,3 | 0,8 | 1,5 | 1,1 | 1,6 |
| İEOÖ | 5,1 | 4,6 | 4,4 | 5,0 | 4,5 | 4,5 | 4,7 |

**Mənbə:** BVF –"World Economic Outlook. Update:A Criss Like No Other, An Uncertain Recovery" June 2020, "World Economic Outlook : A long and Difficult Ascent" October 2020.

Neft qiymətləri sətri Brent, Dubay, WTI markaları üzrə orta qiymətin dəyişməsini özündə əks etdirir. Oktyabr buraxılışında 1 barel neft üçün orta neft qiymətləri 2019-cu ildə 61.39 ABŞ dolları, 2020-ci ildə 41.69 ABŞ dolları, 2021-ci il 46.70 ABŞ dolları nəzərdə tutulmuşdur. Cədvəldən qeyd olunduğu kimi əksər ölkə və regionlar üçün proqnoz rəqəmlərinə azalmada yeniliklər edilmişdir.

Büdcənin, dövlət gəlirlərinin və xərclərinin səmərəliliyində başlıca nəzarət xəzinədarlığın payına düşür. Xəzinədarlıq ayrı-ayrı iqtisadi əməliyyatlar üzrə maliyyə idarəetməsinin optimallaşmasında mühüm rol oynayır. Beynəlxalq təcrübədə xəzinədarlıq maliyyə menecmentində böyük səlahiyyətə malikdir. Xəzinədarlığın səlahiyyətlərindən biri də təminatlı borcların və dövlət borclarının maliyyə menecmentidir.

Ayrı-ayrı ölkələrdə xəzinədarlığa xas olan vəzifələr eyni olmur. Bəzi ölkələrin xəzinədarlıq sistemi üzərlərinə fəaliyyət növləri ilə bağlı məhsuliyyətdən boyun qaçırırlar. Büdcə gəlirləri üzrə xəzinədarlığın fəaliyyəti aşağıdakı kimidir:

- Banklar vasitəsi ilə büdcəyə daxilolmaların müəyyənləşdirilməsi məqsədi ilə banklarla danışıqlıqlar;
- Vergilərin təşkili məsələləri;
- Daxilolmaların xüsusi proqramlar və müxtəlif dövlət idarəçiliyi orqanları tərəfindən bölüşdürülməsi;
- Bank sistemi vasitəsilə daxilolmaların toplanması və onlara nəzarət.

Azərbaycanda dövlət gəlirlərinin maliyyə menecmentinə qənaətlə və daha səmərəli istifadə edilməsinə cari nəzarəti təmin etmək, maliyyə sisteminin, iqtisadi sistemin tamamilə kompüterləşdirilməsi, şəbəkələrin yaradılmasına görə Maliyyə Nazirliyi müvafiq tədbirlər görür. Xəzinədarlıq dövlət büdcəsinin icrasına nəzarət edir. “Büdcə sistemi haqqında” müddəalara nəzər yetirək.

- Büdcə təşkilatlarına görə öhdəliklər və yaranan borcların ödənilməsi;
- Dövlət büdcəsinə bütün ödəmələrin və daxilolmaların, büdcədənkənar ödənişlərin və büdcədənkənar vəsaitlərin müəyyənləşdirilmiş qaydada icrası.

Dövlət xərclərinin strukturu və həcmi ölkənin sosial siyasi mühitinə və iqtisadi artım tempinə birbaşa təsir edir (Məmmədova E.İ., Novruzov N.A., 2018). Ödənişlərin büdcə vastisəsilə iqtisadi cəhətdən düzgün əsaslandırılması, düzgün bölüşdürülməsi, vətəndaşların, vergi ödəyicilərinin birbaşa və dolayı maraqlarına toxunur. Büdcə vəsaitlərinin səmərəliliyinin və şəffaflığının gözlənilməsi

iqtisadiyyatın dinamik inkişafına, vergi daxilolmalarının artımına, vergidən yayınma hallarına müsbət təsir edir.

Büdcə vəsaitlətinin səmərəliliyini artırmaq sahəsində aşağıda qeyd olunan iqtisadi tədbirlər həyata keçirilməlidir.

- Normalara nəzərən kadr hazırlığının planlaşdırılması və bu istiqamətdə, proqnozlaşdırma mexanizmlərinin tətbiqi;
- Yerli və xarici müəssisələrə güzəştin tətbiqi vasitəsilə onların marağını artırmaq;
- Qeyri- dövlət təhsil sistemini inkişaf etdirmək;
- Maliyyələşdirmədə təşkilatların könüllü iştirakı;

İstər büdcə, istərsə də büdcədənkənar maliyyə ehtiyatlarında qənaətlə, səmərəli, düzgün təyinatı üzrə istifadə üçün bütün bedcə və təşkilatlarda möhkəm, sağlam maliyyə mexanizmi qurulmalıdır. Dövlət büdcəsinin təsnifatının strukturu, tərkibi Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun həyata keçirilir. Qrupladırmanın quruluş prinsipləri və xarakteri büdcə gəlirlərinin və xərclərinin sosial, iqtisadi məzmunu, idarəetmə sistemi təsərrüfatın strukturu ilə müəyyən edilir (Ələkbərov Ə.Ə.,2007). Dövlət gəlirlərinin mənbələrinin reqlamentləşdirilməsi, eyni zamanda büdcə xərclərinin məqsədlərinin müəyyən edilməsi bütün dövlət büdcəsi prosesinin səmərəliliyinin mühüm şərtləridir. İlk növbədə bu, daxil olan vəsaitlər ilə sərf edilən xərclər üzərində dövlət maliyyə nəzarətinin həyata keçirilməsinə əlverili şərait yaradır, eyni zamanda büdcə intizamının yerinə yetirilməsini təmin edir. Qruplaşdırmanın dəqiqliyi və şəffaflığı büdcə təsnifatı qarşısında əsas tələbdir. (Ələkbərov Ə.Ə.,2007).

1. Dövlət gəlirlərinin və xərclərinin qruplaşdırılması, detallaşdırılması büdcəyə daxil olan maliyyə göstəricilərinin yoxlanmasını xeyli asanlaşdırır, gəlirlərin dinamik inkişafını, müxtəlif xərclərin və gəlirlərin xüsusi çəkisini, eyni zamanda hər hansı bir ehtiyacın tələbatının nə dərəcədə ödənilməsini müəyyənləşdirir.

2. Təyinat büdcələrin və smetaların məcmusuna əlverişli şərait yaradır, eyni zamanda iqtisadi təhlili asanlaşdırır, büdcə vəsaitlərinin vaxtında büdcədə toplanmasına, gəlirlərdən məqsədli şəkildə istifadəsinə nəzarəti sadələşdirir.

Dövlət büdcəsinin icrası haqqında maliyyə hesabatı üzrə gəlir və xərclərin müqayisəsinə  şərait yaradır, vəsaitlərin qənaətlə istifadəsinə maliyyə intizamına şərait yaradır, maliyyə planlarının yerinə yetirilməsinə imkan verir.

Bildiyimiz kimi büdcə həmişə tarazda olmur. Yəni, büdcə gəlirləri büdcə xərclərinə həmişə bərabər olmur. Ölkədə nüdcə xərclərinin büdcə gəlirlərindən çox olduğu hala da rast gəlmək mümkündür ki, bu zaman büdcə kəsri formalaşır. Əks hall isə büdcə gəlirlərinin büdcə xərclərindən çox olduğu haldır ki bu da büdcə defisiti adlanır. Büdcə xərclərinin gəlirlərdən çox olduğu büdcə kəsri halına nəzər salaq. Büdcə gəlirləri ilə xərcləri arasında tarazlığa nail olmağın vasitələrindən əsası büdcə xərclərinin ixtisarıdır. Bu halda büdcə xərcləri nisbətən azalacaq və büdcə gəlirləri ilə tarazılq vəziyyətinə gələcəkdir. Dövlət gəlirlərinin maliyyə menecmentinin idarə edilməsi üçün müxtəlif tədbirlər vardır. Bu tədbirlərin həyata keçirilməsi bir sıra iqtisadi kateqoriyalardan asılıdır. Bu səbəblərər görə də hər bir iqtisadi faktor tam tədqiq edildikdən sonra aşağıda qeyd olunmuş tədbirləri həyata keçirmək mümkün olur.

Respublikada dövlət gəlirlərinin və xərclərinin maliyyə menecmentinin daha səmərəli idarə edilməsi üçün aşağıdakı tədbirləri həyata keçirmək mümkündür.

1. Dövlət vəsaitinin investisiyalaşdırılması istiqamətini dəyişmək. Burada əsas məqsəd investisiyanın rentabelliyinin yüksəldilməsidir.
2. Maliyyə güzəştlərindən və sanksiyalardan daha geniş istifadə. Burada isə məqsəd ictimai istehsalı stimullaşdırmaqdır.

Dövlət gəlirlərinin illər üzrə göstəricilərinə nəzəryetirsək görərik ki, Dövlət Neft Fondundan daxilolmalar dövlət gəlirlərinin mühüm hissəsini təşkil edir. Dövlət Neft Fondu büdcədənkənar dövlət fondu olmaqla, hüquqi şəxs statusuna malikdir. Dövlət Neft Fondunun yaradılmasının əsasını neftin nəsillər arasında

ədalətli bölüşdürülməsinin təmini təşkil edir. Fond Prezident qarşısında hesabat verir, məsuliyyət daşıyır. Neft Fondunun qarşısında duran vəzifələrdən biri ölkə iqtisadiyyatınn artan xarici valyuta ehtiyatlarının mənfi təsirlərdən qorumaq, eyni zamanda makroiqtisadi tarazlığı təmin etməkdir. Neft Fondunun gəlirlərinin daha dəqiq desək büdcəsinin icrası rəyə əsasən Prezidentin müvafiq sərəncamları ilə təsdiq olunmuş Neft Fondu büdcəsinə, vəsaitin istifadəsini həyata keçirilir.

Ölkədə dövlət gəlirlərinin idarə edilməsinin səmərəliliyinə təsir edən başlıca faktor büdcə səmərəliliyidir. Büdcə səmərəliliyi dövlət proqramının, funksiyasının, investisiya layihəsinin icrası nəticəsində dövlət büdcəsinə təsirin nisbi göstəricisi, büdcənin əldə etdiyi xərclərə, səbəb olan xərclərə nisbəti olaraq təyin olunan investisiya layihəsidir. Büdcə səmərəliliyinin qiymətləndirilməsi 2 fator üzrə təsnifləşdirilir. Büdcə səmərəliliyi regional və ya dövlət orqanlarının tələbi ilə qiymətləndirilir. Regional tələb daha əlverişli üsullardan hesab olunur. Çünki burada ayrı-ayrı regionlar əsas götürülür təhlil edilir və qiymətləndirilir. Dövlə orqanlarıninn tələbi ilə qiymətləndirmə isə nisbətən mürəkkəb metod sayılır eyni zamanda çoxşaxəli metod kimi qiymətləndirilir. Müxtəlif səviyyəli büdcələr və ya icmal büdcə üçün bu tələblərə uyğun olaraq bedcə səmərəliliyi müəyyən edilə bilər. Büdcə vəsaitlərinin hərəkəti tərifinə əsasən büdcə səmərəliliyinin göstəriciləri hesablanır. Büdcə səmərəliliyininin göstəricilərinə bir sıra iqtisadi amillər aiddir və oluqca mürəkkəb prosesdir. Büdcə səmərəliliyinin hesablanması üçün vacib olan ən başlıca iqtisadi amil pul axınlarıdır. Büdcə səmərəliliyinin hesablanması üçün pul axınlarına aşağıdakılar aiddir:

- Qanunvericiliklə müəyyən edilmiş aksiz vergilərindən , vergilərdən yığmlardan, rüsumlarda və büdcədənkənar fondlara ayırmalarlardan daxilolmalar;
- Vergi güzəştlərini ödəmək üçün ödənişlər;
- Layihədə nəzərdə tutulan obyektlərin tikintisi, kəşfiyyatı və istismarı üçün müsabiqə, lisenziyalaşdırma və tenderlərdən əldə edilən gəlir;

- Xarici borclara dəstək üçün RF Maliyyə  kormissiya ödənişləri;
- Layihə iştirakçılarına müvafiq büdcədən verilmiş kreditlərin verilməsində ödənişlər;
- Bölgəyə və ya dövlətə məxsus səhmlər və fərdi sahibkarların satışına görə çıxarılan digər qiymətli kağızlar üzrə dividentlər;

Büdcə səmərəliliyinin başlıca göstəricisi büdcənin xalis cari dəyəridir. (NPDb) . Xalis cari dəyər pul mədxilinin cari dəyəri ilə pul məxaricinin cari dəyəri arasındakı fərqdir. Uzunmüddətli investisiya layihələrinin gəlirliyinin hesablanması üçün xalis cari dəyərdən istifadə olunur və aşağıdakı kimi hesablanır:

$$\mathbf{NPV}=\sum_{t=1}^{T}\frac{C_t}{(1+r)^t} - C_0$$

Burada, $C_t$ t tarixində gözlənilən pul axını;

$C_0$ ilkin investisiyanın məbləği;

**r** diskont faiz dərəcəsidir.

İnvestisiya layihəsi o zaman məqsədə uyğun hesab olunur ki, investisiya layihəsinin xalis cari dəyəri müsbət olsun. Əksinə, xalis cari dəyər mənfi olduqda investisiya qoyuluşu məqsədəuyğun hesab olunmur. 3-cü hall isə 0-a bərabər olduğu haldır ki, bu halda diversifikasiya və ya aktivlərin qorunması üçün istifadə edilir. Büdcə xaricində olduqda, (İRR) büdcənin daxili gəlirlilik dərəcəsini müəyyən etmək mümkündür. Müəyyən bir ümumi zəmanət dəyəri olan müstəqil layihələrin təhlili, seçimi üçün dövlət zəmanətlərinin verilməsi halında, yalnız NPVb yox, zəmanət gəlirlilik indeksi (İDG) –NPV-nin zəmanətlərinin dəyərinə nibəti əhəmiyyətli rol oynayır.

Azərbaycanda dövlət gəlirlərinin səmərəliliyinin artırılması yolları yuxarıda qeyd etdiyimiz kimi müxtəlifdir. Bu üsulların hər biri eyni zamanda əlverişli ola bilməz belə ki, müxtəlif illərdə dövlət gəlirlərinin səmərəliliyi üçün tətbiq edilmiş üsul müxtəlif nəticələr verə bilər. Buna bir çox amillər təsir edir. Bu amillərə ən

başlıca təsir edən iqtisadi dövrdür. Belə ki, məsələn 2010-29015-ci illərdə dövlət gəlirlərinin maliyyə menecmentinin artırılması üçün tətbiq edilən metod 2020-221-ci illərdə eyni nəticəni verməsin. Bunun üçün ən əsas dövrləri, dövrlərə, illərə təsir edən amilləri müəyyən etmək lazımdır. Neftdən əldə olunan gəlir illər üzrə müxtəlifdirsə, nisbətən yüksək olan dövrdə dövlət gəlirlərinfən istifadə nisbətən aşağl olan dövrdən fərqli olacaqdır. Bu səbəblərə görə də dövlət gəlirlərinin maliyyə menecmentinin idarə edilməsinin yolları daha dəqiq araşdırılmalı, ən əlverişli metod tətbiq olunmalıdır. Yalnız bu metodların tətbiq olunması ilə dövlət gəlirlərinin idarə olunması, bölgüsü və yenidən bölüşdürülmsi istiqamətində müsbət nəticələr əldə etmək mümkündür.

## NƏTİCƏ VƏ TƏKLİFLƏR

Müstəqillik qazandığımız dövrdən indiki zamanımıza kimi Azərbaycan Respublikasında baş verən iqtisadi islahatlar fiskal siyasətin hansı istiqamətinin müəyyənləşməsindən ibarət idi. Respublikamızda iqtisadi inkişafın təmin olunmasına görə  iqtisadi inkiaf strategiyası tərtib olunmuş və buna görə də Respublikanın başqa iqtisadi sistemə keçidinin reallaşdırılması az xərclərlə nəzərdə tutulmuşdur. Keçid dövrü iqtisadiyyatındakı ölkələrdə sosial problemlərin aradan qaldırılması üçün büdcədən istifadə olunur.

Dövlətin əsas məqsədi güclü iqtisadiyyata, iqtisadi qüvvəyə malik olmaqdır. Güclü iqtisadiyyata malik olmaq üçün inkişaf strategiyasını və inkişaf istiqamətini seçmək lazımdır. Dövlətin bütün mümkün qüvvələri qeyd olunan

konsepsiyanın reallaşmasına mümkün qədər kömək etməlidir. Bundan sonra dövlət qüdrətli iqtisadi vəziyyətə, iqtisadi gücə nail olacaqdır. Dövlətin inkişaf konsepsiyası obyektiv və düzgün imkanlar daxilində müəyyən edilməlidir. Ölkənin qeyd olunan məqsədlərə çatması üçün dövlət büdcəsindən vasitə kimi yararlanır. Büdcədən iqtisadi alət kimi faydalanmaq haqqında biz dissertasiyada məlumat vermişik. Büdcənin əsas funksiyası hökumət orqanları, yerli orqanların köməyi ilə ayrı-ayrı regionlarda sahibkarlığın həvəsləndirilməsi və məhsuldar qüvvələrin əlaqələndirilməsidir.

Ölkədə dövlət gəlirlərinin idarə edilməsinin səmərəliliyinə təsir edən başlıca faktor büdcə səmərəliliyidir. Büdcə səmərəliliyi dövlət proqramının, funksiyasının, investisiya layihəsinin icrası nəticəsində dövlət büdcəsinə təsirin nisbi göstəricisi, büdcənin əldə etdiyi xərclərə, səbəb olan xərclərə nisbəti olaraq təyin olunan investisiya layihəsidir. Büdcə səmərəliliyi regional və ya dövlət orqanlarının tələbi ilə qiymətləndirilir. Müxtəlif səviyyəli büdcələr və ya icmal büdcə üçün bu tələblərə uyğun olaraq bedcə səmərəliliyi müəyyən edilə bilər. Büdcə vəsaitlərinin hərəkəti tərifinə əsasən büdcə səmərəliliyinin göstəriciləri hesablanır. Büdcə səmərəliliyinin hesablanması üçün pul axınlarına aşağıdakılar aiddir:

- Qanunvericiliklə müəyyən edilmiş aksiz vergilərindən , vergilərdən yığımlardan, rüsumlarda və büdcədənkənar fondlara ayırmalarlardan daxilolmalar;
- Vergi güzəştlərini ödəmək üçün ödənişlər;
- Layihədə nəzərdə tutulan obyektlərin tikintisi, kəşfiyyatı və istismarı üçün müsabiqə, lisenziyalaşdırma və tenderlərdən əldə edilən gəlir;
- Xarici borclara dəstək üçün RF Maliyyə kormissiya ödənişləri;
- Layihə iştirakçılarına müvafiq büdcədən verilmiş kreditlərin verilməsində ödənişlər;
- Bölgəyə və ya dövlətə məxsus səhmlər və fərdi sahibkarların satışına görə çıxarılan digər qiymətli kağızlar üzrə dividentlər;

Müasir dövrdə Respublikada maliyyə vəziyyəti, dövlət büdcəsi, dövlət gəlirləri və xərcləri ətraflı şəkildə tədqiq olunmalıdır. Maliyyənin tədqiq olunması dedikdə buraya başlıca olaraq dövlət büdcəsi və onun formalaşması, dövlət gəlirləri və xərclərinin öyrənilməsi daxildir. Dissertasiya mövzusunun əsas məğzi büdcə gəlirləri və onların səmərəli idarə edilməsidir. Büdcə gəlirləri büdcə formalaşmasında dövlətin büdcə xərclərinin səmərəli idarə edilməsində mühüm rol oynayır. Qeyd olunmuş səbəblərə görə dövlət büdcəsindən əlverişli istifadə etmək, dövlt gəlirlərinin düzgün qeuplaşdırılması, büdcə xərclərindən səmərəli istifadə olunması lazımdır. Dövlət gəlirlərinin əsas tərkib hissəsini təşkil edən büdcə gəlirləri, vergilər, dövlət neft fondunun gəlirləri, dövlət müəəsisələrindən əldə olunan gəlirlər və s kimi gəlirlər səmərəli idarə olunmalıdır.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

## Azərbaycan dilində


1. Azərbaycan Respublikasının Vergi Məcəlləsi , Bakı-2019.
2. Azərbaycan Respublikasının Vergi Məcəlləsi ,Bakı 2020.
3. Azərbaycan Respublikasında iqtisadi inkişafın xüsusiyyətləri və problemləri. Elmi əsərlər toplusu. V buraxılış.Bakı; İqtisadi islahatlar mərkəzi, 2004. 490s
4. .“Azərbaycan Respublikasının Dövlət Büdcəsi haqqında Azərbaycan Respublikasının Qanunu”, Bakı 2018.
5. “2021-ci il Dövlət büdcəsi haqqında” Azərbaycan Respublikasının qanunu. 29 dekabr 2020-ci il.
6. B.Ataşov, N.Novruzov, E.İbrahimov. (2014), “Maliyyə nəzəriyyəsi”, Bakı, səhifə-646.

7. Bağırov D.A., Həsənli M.X. (2011), “Maliyyə” dərsliyi, Bakı, “Iqtisad Universiteti” nəşriyyatı, səhifə-344.
8. Cihan Bulut., Süleymanov E. (2013), “ Dövlət maliyyəsi”, Bakı, səhifə- 331.
**9.** Ələkbərov Ə.Ə. (2005), “Azərbaycan Dövlətinin sosial-iqtisadi inkişafında vahid büdcə sisteminin rolu”, Bakı, “Səda”.səhifə - 390.
10. Ə.Ə.Ələkbərov.(2007), “Sosial-iqtisadi inkişafının maliyyə-büdcə parametrlərinin tənzimlənməsi”. Bakı.
11. Novruzov N.A., İbrahimov Ə.İ. (2012), “Büdcə sistemi” dərslik, Bakı.
12. Məmmədova E.İ., Novruzov.N. A. (2018), “Maliyyə”, Bakı: “Kooperasiya”, səhifə-463.
13. Vəliyev Z. (2006), “Dövlət büdcəsi”. Bakı, səhifə -216.
**14.** Vəliyev Q., Əliyev N., Cəlilova S. ( 2012), “Maliyyə menecmeni” dərslik, Bakı, səhifə -325.

## İngilis dilində

1. Jackson R.M., Goeldner J.R (2010). “Economy”. London, 277 p.
2. Marl K.R. (2016). “Research of financial provision”. London, “PP press”. 207 p.
**3.** Robert D. Lee Jr., Ronald W/Johnson, Plilip G. Joyce (2020) Public Budgeting Systems p.198
**4.** Robert D.Lee Jr., Ronald W. Johnson, Philip G. Joyce (2020) Public Budgeting Systems p.198
**5.** Ussher C.,Kibblewhite A.,Outcomes and management in New Zealand-Abackground Paper(new Zeland Treasury),2001

## Türk dilində

**1.** Abdullah , R.B . Finansial ve yönetim analizi “Girişimcilik ve Kalkınma dergisi”, 2016
**2.** Kızılgöl Ö , ve İşgüden , B. “ Bir işletmenin ekonomik faaliyyetinin analizi Ders kitabı” –T İnfra 2014 -147 sayfa
**3.** D.Hasan , S.Yüksel ,Ü. Hacioğlu “ Stratejik Finansal Yönetim” 2017 – 620 sayfa
**4.** Doç Dr.M.Saraç ( 2015) , Finansal Yönetim . İstanbul -132 sayfa

5. Yılmaz, B. (2015) Kobi'lerin Finansman Sorunlarına Bir Çözüm Önerisi: "Risk Sermayesi Finansman Modeli", İstanbul, ASKON s.247
6. Figen Altuğ., (2014) "Bütçe teorisi ve uygulaması.".İstanbul, 95 s.
7. Cihan Yüksel.,(2020) "Kamu bütçesi" .İstanbul.,62 s.
8. Zengin, A. (2016) Makroekonomik İstikrar ve KOBİ'ler, ", İstanbul s.285
9. Uludağ, İ. ve Serin, V. (2011) Küçük ve Orta Ölçekli İşletmeler - Yapısal ve Finansal Sorunlar, Çözümler -, İstanbul Ticaret Odası Yayın No: I., s.159
10. Mustafa Sakal, Mustafa Karadeniz (2019) Devlet bütçesi ve yerel yönetimler maliyesi s.228

## İnternet resursları

1. http://www.taxes.gov.az/ Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin yanında Dövlət Vergi Xidmətinin rəsmi saytı
2. https://azertag.az/store/files/news/MALIYYE%20STRATEJI%20YOL.pdf
3. https://www.economy.gov.az/ ; Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin rəsmi saytı
4. www.cbar.gov.az – Azərbaycan Respublikasının Mərkəzi Bankının saytı
5. http://whitehouse.gov./omb/mgmt.gpra/gplow2m.html
6. https://oilfund.az/report-and-statistics/budget-information/41
7. https://data.worldbank.org/country/AZ

## Cədvəllərin siyahısı

**Cədvəl 1:** 2015-2020-ci illər üzrə büdcə gəlirləri...........................................35

**Cədvəl 2:** Dövlət Neft Fondunun 2020-ci il üzrə gəlirləri................................38

**Cədvəl 3:** 2010-2019-cu illər üzrə Azərbaycan Respublikasının dövlət büdcəsinin gəlirləri.........................................................................................................53

## Qrafiklərin siyahısı

**Qrafik 1:** 2015-2020-ci illər üzrə büdcə gəlirlərinin dalğavari hərəkəti................36

## Şəkillərin siyahısı

**Şəkil 1:** 2015-2020-ci illər üzrə büdcə gəlirlərinin artım sürəti ........................37

**Şəkil 2:** 2021-ci il Dövlət büdcəsi daxilolmalarının sektorlar üzrə bölgüsü .........57

**Şəkil 3:** 2020,2021-ci illər üzrə regionlar üzrə təqdim edilən göstəricilər............63